Bu bir xalq qəzetidi
ƏDALƏT

# Prezident İlham Əliyev Eldar Quliyevi “İstiqlal” ordeni ilə təltif edib



**Prezident İlham Əliyev Eldar Quliyevin ”İstiqlal” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

**Adalet.az-ın məlumatına görə, sərəncamda qeyd edilir ki, Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Eldar Tofiq oğlu Quliyev “İstiqlal” ordeni ilə təltif edilsin.**

# *Leyla Abdullayeva: Rusiyalı deputatın adı "qara siyahı"ya salnıb*

***Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Rusiya Dövlət Dumasının üzvü Milonovun erməni kanalına müsahibəsini şərh edib.***

***XİN-dən Adalet.az-a verilən məlumata görə, şərhdə deyilir:***



***"Rusiya Dövlət Dumasının hakim "Vahid Rusiya" partiyasından olan üzvü, qatı ermənipərəst mövqeyi ilə tanınan Vitaliy Milonovun erməni KİV-nə müsahibəsi zamanı Azərbaycan dövlətinə və xalqına qarşı qəbuledilməz ifadələr işlətməsini qəti şəkildə pisləyirik. Məlum olduğu kimi, Dövlət Dumasının üzvü Vitaliy Milonov Azərbaycan Respublikasının müvafiq qanunvericiliyini pozaraq, ölkəmizin işğaldan azad olunmuş ərazisinə qeyri-qanuni səfər etdiyi üçün onun adı Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına əlavə edilib. Rusiya Dövlət Dumasının üzvü Vitaliy Milonovun Azərbaycan əleyhinə atdığı növbəti təxribatçı addımı Azərbaycan və Rusiya arasında mövcud olan yüksək səviyyəli münasibətlərə tamamilə ziddir. Dövlət Dumasının üzvünün belə bir məsuliyyətsiz və Rusiya Federasiyasının rəsmi mövqeyinə uyğun gəlməyən davranışı ölkələrimiz arasında münasibətlərə kölgə salmaq cəhdidir. Onun bu çıxışı, həmçinin Rusiya da daxil olmaqla bölgə ölkələrinin uzun illərdir davam edən düşmənçiliyə son qoyulması və xalqlar arasında sülh, əminamanlıq və əməkdaşlığın təmin olunması istiqamətində atdığı addımlara xələl gətirir. Azərbaycan və Rusiya arasında strateji xarakterli tərəfdaşlıq münasibətləri hər iki ölkə Prezidentlərinin sıx təmasları ilə intensiv şəkildə inkişaf etməkdədir. Dövlət Dumasının üzvü statusundan istifadə edərək bu münasibətlərə xələl gətirmək cəhdləri qəbuledilməzdir və uğursuzluğa düçardır".***

# Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva növbəti dəfə Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti vəzifəsinə seçilib.**

Adalet.az-ın məlumatına görə, Milli Gimnastika Arenasında ”AGF” İctimai Birliyinin 11-ci Ümumi iclası və AGF İcraiyyə Komitəsinin 37-ci iclası keçirilir.

AGF Əsasnaməsinə uyğun olaraq ümumi iclas hesabat-seçki xarakteri daşyıb.

Keçirilmiş səsvermə nəticəsində Mehriban Əliyeva növbəti beş il ərzində Azərbaycan Gimnastika Federasiyasının prezidenti (İcraiyyə Komitəsinin sədri), Altay Həsənov isə AGF-in vitse-prezidenti (İcraiyyə Komitəsinin sədr müavini) vəzifəsinə yenidən seçilib.

Bundan başqa, Milli Məclisin deputatı Rauf Əliyev, Heydər Əliyev adına İdman-Konsert kompleksinin direktoru Rafiq Behbudov və bədii gimnastika üzrə Azərbaycan milli komandasının baş məşqçisi Mariana Vasileva növbəti beş il ərzində yenidən İcraiyyə Komitəsinin üzvləri seçilib.

# İradə Tuncaydan günün statusu



**Bülbül ilk professional vokal ifaçı olub, opera müğənnisi olub, İtaliyada təhsil alıb...**

**Elə sözlər yazırlar dünəndən... Guya donos yazanlardan fərqlidirlər... Paxıllıq milləti içindən yeyib-bitirib... Polada görə nifrət...**

**Bayaqdan Arno Babacanyanın 100 illiyinə aid proqrama baxırdım. Hə də erməndi axı... Onu necə yüksəldirlər...**

# "Şuşada oturub bir stəkan çay içməyə bütün titullarımı qurban verərdim"



**Deməli, illər əvvəl dəyərli incəsənət xadimi Fərhad Bədəlbəylidən soruşdum ki (Azadlıq Radiosunda) titullarını nəyə qurban verərdiniz?**

Dedi ki, sizinlə Şuşada oturub bir stəkan çay içməyə bütün titullarımı qurban verərdim.

Fərhad Bədəlbəyli Azərbaycanda ən yüksək titullu 2-3 incəsənət adamından biridir hazırda (SSRİ xalq artisti). Əlbəttə ki, titullarından keçməsinin əleyhinəyəm. Amma çayı məmnuniyyətlə içərdim. Yəqin ki, içərik bir gün.

***P.S. Bu gün onu Şuşada gördüm (TV-də), yadıma düşdü həmin söhbət.***

**İlqar Rəsul**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 009 (5841) 26 yanvar 2021-ci il
Qiyməti 30 qəpik

**Mingəçevir şəhər Mənzil Kommunal İstehsalat Birliyinin rəisinin maaşını hələ də Şəhriyar Mustafayev alır.**

**Süpürgəçilərin maaşına göz dikən rəisə bizim hökumət hələ bir maaş da verir.**

**Vallah, gözəl hökumətimiz var.**



# “Regionda yeni imkanlar əməkdaşlığa geniş qapılar açır”



Bax:səh-2

## Ədliyyə qurumları azad edilmiş ərazilərdə fəaliyyətini bərpa edir

**Ermənistanın təxribatlarına qarşı Azərbaycan Ordusunun başladığı əks-hücum və dövlət başçısının qətiyyəti nəticəsində tarixi salnamə yazıldı.**

Adalet.az-ın məlumatına görə, bunu dünən keçirilən mətbuat konfransılnda Ədliyyə nazirliyinin Təşkilat-nəzarət baş idarəsinin rəis müavini, Qarabağ regional ədliyyə idarəsinin rəisi vəzifəsini icra edən Sübhi Kazımov deyib.

O bildirib ki, Ermənistanın müharibə cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün Ədliyyə Nazirliyi bir çox işlər görüb: ”70-ə yaxın beynəlxalq təşkilatlara və digər təşkilatlara məlumatlar göndərilib. Azərbaycanın 20 faiz ərazisinin işğal olunması, soydaşlarımızın didərgin salınması, Azərbaycana qarşı törədilən faciələr barədə Avropa İnsan Haqları Məhkəməsi və digər beynəlxalq qurumlara videoformatda məlumatlar çatdırılıb. Həmçinin işğaldan azad olunan ərazilərdə idarəetmə ilə bağlı dövlət başçısının tapşırığına uyğun olaraq aidiyyəti qurumlar fəaliyyətə başlayıb. Ədliyyə nazirinin əmri ilə noyabrın 12-də Qarabağ Regional Ədliyyə İdarəsi yaradılıb və artıq idarə fəaliyyətdədir. Ədliyyə işçiləri 2,5 milyon manat vəsaiti könüllü olaraq hərbi əməliyyatlar zamanı orduya köçürüb. Ədliyyə əməkdaşlarının bir qismi isə könüllü olaraq döyüşlərdə iştirak edib”.

# MİNSK QRUPU YENƏ GƏLİR

**Atamın bir ağsaqqal dostu vardı. Deyirdi ki, getdiyiniz evdə əgər uşaqlar qabağınıza çıxıb desə ki, ”Şahmar əmi gəldi, Şahmar əmi gəldi” ürəklə o evə girin. Yox, uşaqlar əgər desə ki, ”Şahmar əmi yenə gəldi” bilin ki, o evdə sizi istəmirlər, qapıdan qayıdın.**

İndi oxuyuram ki, ATƏT-in Minsk qrupunun həmsədrləri gəlirlər. Yadıma atamın dostunun sözü düşdü: ”Həmsədrlər yenə gəldi!”

# İntiqam Valehoğlu: Dialoq Qubadlı ləhcəsindədir



Bayaq dədəmlə maşından danışdığımiz yerdə mamam iki daşın arasında özünü "noqdauna" saldı.Denən sənə lazım idi?

**-100 kilometrə 12 litrdən yuxarı "yeyən"maşınların 80 faizinin qiyməti düşüfdü.(məndən əvvəl mama reaksiya verir)**

**-O niyə həylə?**

**-Benzin qalxıf dana, ona görədi. Bir manatdı...**

**-Cox alanda aşağı düşmüllər?**

**-Bu saa kartof zad dəyil e, zaprafkani diricə alsan da, litri 1 manatdi.**

***Mehman CAVADOĞLU***



# Paşinyan stereotipləri qıra biləcəkmi?

***Dünən Yerevanın küçələrində Paşinyanın istefası tələbilə avtoyürüş keçirilib. Artıq bu eyni tələblə keçirilən ikinci avtoyürüşdü və küçələrdə şütüyən avtomobillərin sayından da aydın görünür ki, əslində, söhbət yeni formatda ciddi bir etiraz aksiyasından yox, höcətə düşmüş bir qrup tərs adamın cığallığından gedir. Çünki hələ hadisələrin isti-isti vaxtında beş-on min adamın fasiləsiz mitinq və yürüşlərlə, gurultulu bəyanatlar və qır-qışqırıqla bacarmadığı işi 20-30 həvəskar "avtoş"un görəcəyinə ümid bəsləmək sadlövhlükdən başqa bir şey deyil.***

***İkinci Qarabağ müharibəsində imzalanan "Təslim aktı"ndan sonra Ermənistan baş nazirinin hakimiyyətdə duruş gətirəcəyinə bəlkə heç özü də inanmırdı. Kabinetinin yağmalanmasından tutmuş sərt təhqirlər, nifrinlər, ölümünə çağırışlar onun nəinki hakimiyyət kürsüsünü qoruyacağına, hətta ilk günlər gizləndiyi bunkerdən sağ-salamat harasa çıxıb qaça biləcəyinə olan ümidlərin üstündən də xətt çəkmişdi.***

**Bax: səh.2**

*Vaqif Qarayev*



# Məktəbi bağlayır, söyürsüz, açır, yenə söyürsüz

***Virtual təhsil... distant təhsil... onlayn dərs...***

***Bizim üçün yenilikdir... həm məktəb, həm müəllim, həm şagirdlər, həm də valideynlər üçün yenilikdir...***

***Tədrisdə göz kontaktı, müəllimin emosiyaları, jestləri çox vacibdir... dediyini anlatmaq üçün... Həm məktəbin (sinfin) spesifik aurası var... Şagirdlər arasında rəqabət filan da öz yerində. İndi iş elə gətirib ki, valideynlər arasında rəqabət gedir. Kim daha yaxşı izah edəcək öz övladına. Valideynlərin psixoloji gərginliyindən heç danışmasaq yaxşıdı.***

***Nəsə... İndi məktəbləri açmaq istəyirlər. Xeyirli olsun. Amma brifinqdə səslənən rəqəmlər xoşagələn deyil. Uşaqlar arasında yoluxma ilə bağlı... minlərlə yoluxma olub. Naziri niyə söyürsüz? Məktəbi bağlayır, söyürsüz, açır, yenə söyürsüz...***

***Neynəsin? Və ya neynəyək???***

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

# ARNO BABACANYAN VƏ POLAD BÜLBÜLOĞLU



**Caz musiqisi mənə bir az yad olsa da, muğamın içində böyümüş, kənddən gəlmiş bir kənd uşağı üçün təbii ki, elə olmalıydı. Amma kənddən gəlmiş kənd uşağı Vaqif Mustafazadənin ifaları üçün dəli-divanə idi. O vaxtkı mətbuatda Vaqif Mustafazadəni söyürdülər, hətta Azərbaycanın ən görkəmli şairi onun əleyhinə yazı da yazmışdı və ” Azərbaycan gəncləri” qəzeti Vaqifin əleyhinə oxucu məktubları çap edirdi.**

**Mən Vaqifin improvizasiyaları, muğama gətirdikləri qəribə yenilikləri (bunu sonralar Alim Qasımov da elədi və millətin sevimlisinə çevrildi) dəli kimi dinləyirdim. Belə improvizasiyaları Rəmiş edərdi, bir də Rafiq Babayev.**

**Bax: səh.2**

# SÜLHMƏRAMLILAR BİR AZ DA BƏRK DURSALAR

**bütün İrəvanı Xankəndinə daşıyacaqlar və İrəvan boşalacaq. Yəqin sonra da Rusiyadakı erməniləri qovalayacaqlar İrəvana ki, gedin xarabanıza. Əks halda, Rusiyanın içində bir neçə erməni dövləti yarana bilər.**



# ALLAH HAQQI, BİZ ELƏMƏMİŞİK

**Bağdadın aeroportunu bombaladılar.**



# MUZEYLƏRİN QABAĞINDA BASABAS OLUB

***Muzeylərin fəaliyyətinə icazə verildi.***

***Rauf Qərib Alagöz deyib ki, muzeyə gedim. Bir neçə muzeyə yaxınlaşıb, girə bilməyib - basabas, növbə. İlahi, millət muzeydən ötrü darıxıbmış ki.***



## GÜNÜN LƏTİFƏSİ

Bir gün gecə saat 2 olur, Mamed evə gəlmir. Arvadı zəng vurur qaynanasıgilə. Deyir:

**- Ay qaynana, saat 2-di, amma Mamed evə gəlməyib. Bəlkə başqa arvadı var, onun yanına gedib?**

**- Ay gəlin, niyə ağlına pis-pis fikirlər gətirirsən? Bəlkə bıçaqlayıblar, bəlkə maşın vurub?**

## “Regionda yeni imkanlar əməkdaşlığa geniş qapılar açır”



**Regionda yeni vəziyyətlə əlaqədar yeni imkanlar, sözsüz ki, özəl investorlar, həmçinin dövlət qurumları üçün əməkdaşlığa geniş qapılar açır. Hazırda yeni nəqliyyat əlaqələri müzakirə mərhələsindədir və sözsüz ki, bizim Xudafərin su anbarı ilə bağlı əməkdaşlığımız və elektrik stansiyasının tikintisi ilə əlaqədar gələcək planlar artıq çox aktiv fazadadır.**

Adalet.az xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edərkən söyləyib.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirib ki, qarşıdakı bir neçə ildə bu layihəni tamamlaya və hər iki tərəfi yeni elektrik enerjisi istehsalı ilə təmin edə biləcəyik. Həmçinin bizim bir neçə il əvvəl yüksək səviyyədə razılaşdırdığımız layihə - Ordubad və Marazad elektrik stansiyaları ilə bağlı işlər uğurla gedir. Beləliklə, bizim geniş gündəliyimiz var. Bundan əlavə, ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi keçiriləcək.

”Bizim müzakirə edəcəyimiz çox məsələlər var. Mən, ilk növbədə, ikitərəfli əlaqələrimizi, onların səviyyəsini, inkişaf tempini, nailiyyətləri və yeni planları yüksək qiymətləndirdiyimi bildirmək istərdim. Əlbəttə ki, biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq. Bu, təbiidir, çünki dediyim kimi, yalnız dost ölkələr bizim tərəfdaşımız olacaq. Sözsüz ki, İran şirkətlərinin bizə yaxın yerləşməsi, logistika və böyük təcrübə kimi üstünlükləri var”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

## Zərif: “Şirkətlərimiz Qarabağda işə başlamağa hazırdır”

**Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğala son qoyulması, habelə azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq imkanı əldə etməsindən sonra artıq normal vəziyyət mövcuddur və İran bu işdə yardımçı olmaq arzusundadır. Biz Sizin dostunuz olmaqdan əlavə, yaxın qonşuyuq və əhalinin qayıdacağı, yenidənqurma işlərinin aparılacağı ərazilərinizin bərpası baxımından digər ölkələr ilə müqayisədə üstünlüyə malikik. Biz o insanları ailə və soydaş hesab edirik. Arazın hər iki sahili boyu hər zaman soydaşlıq və dostluq münasibətləri mövcud olub.**

Adalet.az xəbər verir ki, bu fikirləri İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə səsləndirib.

Nazir deyib: ”Energetika, yenidənqurma və geri dönəcək əhalinin yaşayışı üçün vasitə ola biləcək kənd təsərrüfatı kimi sahələr bizim üçün prioritet təşkil edir və şirkətlərimiz işə başlamağa hazırdır. Zati-aliniz tərəfindən qeyd edilən layihələrə gəldikdə, bildirmək istəyirəm ki, biz Sizin rəhbərliyiniz altında bu günə qədər həyata keçirdiyimiz səfərlər, o cümlədən ölkənizin Baş nazirinin müavini və xarici işlər nazirinin İrana olduqca uğurlu səfərlərini yüksək qiymətləndiririk. Biz Şimal-Cənub və Cənub-Qərb dəhlizləri çərçivəsində həmin sahələr üzrə işləmək arzusundayıq. Buraya elektrik enerjisinin istehsalı, energetika, ”Xudafərin” və ”Qız Qalası” hidroqovşaqları ilə bağlı əməkdaşlıq və digər məsələlər də aiddir. Çox şadıq ki, rəsmilərinizin İrana səfərləri zamanı bu layihələr üzrə surətli irəliləyiş əldə olunmuşdur və artıq biz ölkələrimiz arasında daha uzun birgə dostluq sərhədinə sahib ola bilərik”.

**İran XİN-in başçısı bildirib ki, Azərbaycan Prezidentinin ”3+3” əməkdaşlıq formatı təklifinə uyğun olaraq, regionun 6 ölkəsini ziyarət edəcək. Onun sözlərinə görə, belə əməkdaşlıq region ölkələrinin hamısının maraqlarına uyğundur.**

### *Azərbaycanda gənclərlə bağlı geniş tədbir keçiriləcək*



**Azərbaycanda gənclərlə bağlı geniş tədbir keçiriləcək.**

**Bununla bağlı məsələ Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2021-ci il yaz sessiyasının qanunverilik işləri planına daxil edilib. Belə ki, komitə sədri Hicran Hüseynova dünən keçirilən iclasda yaz sessiyasında baxılması nəzərdə tutulan məsələlər barədə ətraflı məlumat verib.**

**O qeyd edib ki, 2 fevral - Gənclər günü ərəfəsində ”Gənc ailələrin sosial vəziyyəti” mövzusunda geniş videokonfransın keçirilməsinin nəzərdə tutulur.**

## Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

**Azərbaycan Baş Prokurorluğunda 2020-ci ildə görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş Kollegiya iclası keçirilib. Kollegiya üzvləri əvvəlcə prokurorluğun inzibati binasında yerləşən Ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyublar. İclas başlamamışdan öncə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib, qazilərimizə şəfa dilənib.**

### *5 milyon 115 min manat dəyərində əmlak üzərinə həbs qoyulub*

**Kollegiya iclasında giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev** diqqətə çatdırıb ki, 2020-ci il ərzində prokurorluq və müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarında qeydə alınmış cinayət işləri üzrə ümumilikdə 171 628 342 manat məbləğində maddi ziyanın ödənilməsinə nail olunub. Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 281 vəzifəli şəxs barəsində 180 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, 62 milyon 436 min manat məbləğində ziyanın ödənilməsi təmin edilməklə 5 milyon 115 min manat dəyərində əmlak üzərinə həbs qoyulub.

***2020-ci il ərzində 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi vasitəsi ilə korrupsiya hüquqpozmaları barədə Baş idarəyə daxil olmuş müraciətlərin 47-si üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib.***

### *26 004 cinayətin 84,3%-nin açılması təmin olunub*

2020-ci ilin prokurorluq orqanları üçün də əlamətdar olmasının qeyd edən Baş prokuror bildirib ki, hesabat dövründə digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə qeydə alınmış 26 004 cinayətin 84,3%-nin açılması təmin olunub, bu cinayətlərin 94,5%-i prokurorluq və daxili işlər orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər təşkil etmişdir ki, onların da açılma faizi 85,5% təşkil edib.

***2019-cu illə müqayisədə daxili işlər və prokurorluq orqanları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qəsdən sağlamlığa az ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, mənimsəmə və israf etmə, eləcə də yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin, vəzifə cinayətlərinin sayı azalıb, ötən illərdən bağlı qalan 310 cinayətin açılması təmin edilərək, 254 cinayətkar qrup zərərsizləşdirilib.***

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 1 045 şəxs barəsində 795 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq məhkəmələrə göndərilib. 2019-cu illə müqayisədə 34 hadisə artmaqla 193 qəsdən adam öldürmə cinayətləri qeydə alınıb ki, onların 94 faizinin açılması təmin edilib.

### *Ermənistanın hərbi cinayətləri barədə 62 cinayət işi üzrə 21 şəxs barəsində axtarış elan edilib*

K.Əliyev çıxışına davam edərək bildirib ki, 27 sentyabr 2020-ci il tarixdən etibarən erməni silahlı qüvvələri tərəfindən aparılan təcavüzkar müharibə, onun gedişində törədilən digər xarakterli cinayətlərlə bağlı Baş Prokurorluqda 62 cinayət işi başlanaraq, həmin işlər üzrə və



Ermənistan Respublikasının 4 vətəndaşı barəsində, cəmi 21 şəxs barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarları çıxarılaraq axtarış elan edilib. Eyni zamanda erməni silahlı birləşmələrinin dinc əhalini atəşə tutması nəticəsində 93 nəfər, o cümlədən 12 azyaşlı və 27 qadın qətlə yetirilib, 407 nəfər, o cümlədən 50 azyaşlı və 101 qadın müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının rayon və şəhərlərinin ərazisinə ümumilikdə 30 minə yaxın mərmi və 227 raket atılıb, çoxsaylı əmlaka ziyan vurulmaqla, fərdi yaşayış evləri, yardımçı tikililər, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış sahələri, ayrı-ayrı dövlət qurumlarına məxsus inzibati binalar, dini obyekt, məscid, kilsə və qəbiristanlıqlar dağıdılıb.

***Erməni vəhşiliklərinin dünya dövlətlərinin hüquq mühafizə orqanlarına və aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırılması məqsədilə BMT-nin İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, Avropa Şurasının İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, MDB ölkələrinin üzv dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurası və digər beynəlxalq təşkilatlara, eləcə də 25 ölkənin Baş prokuror və Ədliyyə nazirlərinə Ermənistanın törətdiyi cinayətlər haqqında məktublar, 37 xarici dövlətin səlahiyyətli orqanına 46 hüquqi yardım göstərilməsinə dair vəsatətlər göndərilib.***

### *Prokurorluq orqanlarının 38 əməkdaşı təltif edilib*

Kollegiya iclasında çıxış edən Baş prokuror Kamran Əliyev tərəfindən qeyd edilib ki, 2020-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olub, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunub.

**Prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi xüsusi vurğulanmaqla İlham Əliyevin Sərəncamı ilə xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə prokurorluq orqanlarının 38 əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsinin kollektivin böyük sevincinə səbəb olduğu qeyd edilib.**

**Nicat Novruzoğlu**

## Avropa İttifaqı və ABŞ Rusiya hakimiyyətinin azad sözü sıxışdırdığını bəyan edib

**Avropa İttigaqı və ABŞ özlərində etiraz mitinqlərinə toplaşan vətəndaşlarına vurduqları dubinkanın yeri sağalmamış Rusiya hakimiyyətini 23 yanvarda ölkənin 110 şəhərində etiraz aksiyasına çıxan vətəndaşlara qarşı zorakılıq etməkdə qınayıb.**

Azad sözə, vətəndaşların sərbəst toplaşmaq hüquqlarına ”böyük dəyər verən” ABŞ-da, qaradərili vətəndaşın polis tərəfindən boğularaq qətlə yetirilməsinə etiraz edən yüz minlərlə insana qarşı hakimiyyətin zorakılıq hallarını sanki görməzlikdən gəldilər. Avropa İttifaqı qulaqlarının dibində Fransada hələdə səngimək bilməyən sarı jiletlilərə qarşı hakimiyyət qüvvələrinin törətdiyi vəhşiliklərə elementar reaksiya belə vermədilər.

Kremlin Navalnı tərəfdarlarına qarşı keçirilən etiraz aksiya iştirakçılarının zorla dağıdılması hərəkətlərinə kəskin reaksiya verən Avropa İttifaqı xarici məsələlər üzrə Ali nümayəndəsi Jozep Borrel deyəsən indi ayılıb və Rusiya polisinin erirazçılara qatşı güc tədbiq etməsini 25 yanvarda keçiriləcək Avropa İttifaqına daxil olan ölkələrin xarici işlər



nazirlərinin görüşündə müzakirəyə çıxarılacağını bəyan edib.

Kremlin polis zorakılığını Böyük Britaniyada tənqid edib və dərhal həbs olunan aksiya iştirakçılarının azadlığa buraxılmasını tələb edib.

”Biz Rusiya hakimiyyətini məhz öz hüquqlarından istifadə edərkən həbs olunanların və Aleksandr Navalnının azad edilməsinə çağırıdıq”- deyə ABŞ Dpövlət Departamentinin yaydığl bəyənatda bildirilir.

Rusiya Xarici İşlər Nazirliyidə öz növbəsində ABŞ -ı etirazçıları qızışdırmaqda və Rusiyanın daxili işlərinə qarışmaqda günahlandırıb:

”ABŞ hakimiyyəti yaxşı olar ki, öz daxili problemləri ilə məşğul olsun. Amerikan ictimayyəti ölkədə yaranmış sosial ədalətsizlik, ayrıseçkilik ucbatından iki yerə parçalanıb”.

**Rusiya XİN-dən bildiriblər ki, ” ABŞ səfirini nazirlikdə ciddi söhbətlər gözləyir”. Yəni, xüsusi ilə son zamanlar daha da gərginləşən Rusiya - ABŞ münasibətləri daha dərin fazaya qədəm qoyur. Rusiyaya qarşı həmişə aqressiv münasibətdə olan respublikaçıların yeni prezidenti Co Bayden, hakimiyyətinin elə ilk günlərindən hücuma keçməyi planlaşdırır. Bu dəfə Avropanın aparıcı dövlətlərinin də ona açıq dəstək olacağı gözlənilir.**

**Rüstəm Hacıyev**

*Aqil ABBAS*

## ARNO BABACANYAN VƏ POLAD BÜLBÜLOĞLU

**Caz musiqisi mənə bir az yad olsa da, muğamın içində böyümüş, kənddən gəlmiş bir kənd uşağı üçün təbii ki, elə olmalıydı. Amma kənddən gəlmiş kənd uşağı Vaqif Mustafazadənin ifaları üçün dəli-divanə idi. O vaxtkı mətbuatda Vaqif Mustafazadəni söyürdülər, hətta Azərbaycanın ən görkəmli şairi onun əleyhinə yazı da yazmışdı və ” Azərbaycan gəncləri” qəzeti Vaqifin əleyhinə oxucu məktubları çap edirdi.**

**Mən Vaqifin improvizasiyaları, muğama gətirdikləri qəribə yenilikləri (bunu sonralar Alim Qasımov da elədi və millətin sevimlisinə çevrildi) dəli kimi dinləyirdim. Belə improvizasiyaları Rəmiş edərdi, bir də Rafiq Babayev.**

**SSRİ-də caz musiqisi qadağan idi. Amma bu qadağaları vecinə almayanlar vardı. Onları böyük salonlara buraxmazdılar, heç bu da onları narahat etməzdi.**

**Amma onların şöhrəti Polad Bülbüloğlu və Müslüm Maqomayev kimi deyildi.**

**Oxucunu yormaq istəmirəm.**

**Deməli, Moskva televiziyası Arno Babacanyanı təbliğ edir. Olsun.**

**Polad Bülbüloğlu da dünyanın bir nömrəli pianoçusu Fərhad Bədəlbəyli ilə gedir Şuşaya.**

**Bunu qeyd etməyə bilmərəm. Böyük türk pianoçusu Fazil Say var, Allah ömür versin, həqiqətən dahi sənətkardı. Ona da qulaq asmışam dəfələrlə, Fərhad Bədəlbəyliyə də. Və bir dəfə qəzetdə yazdım ki, Fərhad Bədəlbəyli Fazil Sayı pianoya qoyub çala bilər. Sadəcə olaraq, onun təbliğatçıları çoxdu, 80 milyonluq dövlətin nümayəndəsidi, Fərhad Bədəlbəylinin isə təbliğatçısı azdı və 10 milyonluq bir dövlətin sənətkarıdı. Nə isə, kimlərləsə mübahisə etmək istəmirəm.**



**Əslində caz musiqilərini ilk dəfə ölkəyə Tofiq Quliyev gətirmişdi. Orkestr yaratmışdı və bu orkestr onun yazdığı əsərləri az-çox təbliğ edirdi. Bundan başqa, həmin dövrlərdə gənc Polad Bülbüloğlu bu cür əsərlər bəstələyirdi və millət də onun mahnılarını sevə-sevə dinləyird, özü də bütün SSRİ.**

**Həmin vaxt SSRİ-də bir bəstəkar-müğənni çıxmışdı ortalığa - Arno Babacanyan. Çox istedadlı sənətkar idi və SSRİ-də sevilirdi və həm də Moskvada yaşayırdı, arealı çox geniş idi. Əsas da o idi ki, erməni idi və təbliğatı güclü idi. Tofiq Quliyev isə azərbaycanlıydı və Bakıdaydı.**

**Heç kim Arnonun istedadına şübhə edə bilməz, amma təbliğat böyük şeydi. Arnoya həm Ermənistandakı ermənilər, həm də dünyadakı ermənilər babat maya qoyurdular.**

**Srağagün dalbadal Arno Babacanyanla bağlı iki verilişə baxdım: biri ”Mir” kanalında, o biri də Rusiyanın hansısa kanalında. Bəlkə daha çox kanallar verib, izləyə bilməmişəm. Deyəsən, anadan olmasının 100 illiyi idi. Baxdım, hər iki kanal çox gözəl veriliş hazırlamışdı. Fikirləşdim ki, kanalın birində Arnonun idmana münasibəti ilə, ”Spartak”a sevgisi ilə (”Spartak”ın baş məşqçisi Simonyan idi), dünya çempionu Petrosyanla dostluğu və sair və ilaxır bağlıydı veriliş.**

**Yəni bizim kimi, 10-15 il bundan əvvəl çəkilmiş hansısa şair, rəssam, bəstəkarla bağlı verilişləri təkrar etmirdilər.**

**Arno Babacanyan haqqında təbii ki, məlumatlarım var, bəstələrinə də qulaq asmışam. Özü də öz bəstələrini gözəl ifa edirdi.**

**Deməli, 19 yaşlı Müslüm Maqomayev Moskvada televiziya verilişlərinin birində özü yaşda olan Polad Bülbüloğlunun mahnısını oxuyur. Yazan da şedevr yazıb, oxuyan da şedevr oxuyub.**

**Arnonun xanımı dərhal Müslüm Maqomayevə telefon açır və bəstəkarın adından xahiş edir ki, onun da mahnılarını oxusun. Təbii ki, Müslüm də hansısa mahnını oxuyursa, Qədir Rüstəmov kimi, Akif İslamzadə kimi ona öz möhürünü vurur. Və beləliklə, Müslüm Arnonun böyük təbliğatçısına çevrilir. Amma müəyyən zaman keçir, araları dəyir. Səbəb də o olur ki, Arno Babacanyan öz oğlunun reklamı üçün Araik Babacanyana verir mahnılarını. Çünki daha Müslümə ehtiyac yox idi.**

**Mən bu yazını niyə yazdım?**

**Polad Bülbüloğlu öz mahnıları ilə, həm də özünün ifaçılığı ilə nəinki SSRİ-ni, hətta Avropanı fəth eləmişdi. Hələ də bu zirvədə qalır və qalacaq da. Sovet hökuməti vaxtı SSRİ-də və dünyada Azərbaycandan 5-6 nəfər tanınırdı, onun biri Polad idi, biri də Müslüm. Və bir az da Əjdər İbrahimovla Çingiz Hüseynov. Sovet dağılandan sonra Kərim Kərimlini və Fərman Salmanovu tanıdılar.**

**Təbii ki, Bülbül tanınırdı, Zeynəb Xanlarova tanınırdı, Rəşid Behbudov tanınırdı. Rəşid Behbudov daha çox xarici ölkələrdə tanınırdı, SSRİ-yə bu cür sərf edirdi, çünki ölkəyə valyuta gətirirdi.**

**Rusiya televiziya kanalları Arno Babacanyanı təbliğ edəndə bizim müəyyən saytlar və sosial şəbəkə Polad Bülbüloğlunu söyməklə məşğul idi.**

**Azərbaycanın dünyada tanınan bir sənətkarı, dünyanın ən böyük, ən güclü dövlətində Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu haqqında nələr yazmırlar?**

**Guya 76 yaşlı Polad Bülbüloğlu əlinə silah götürüb Şuşada vuruşmalı idi.**

**Az qala yazırlar ki, Ermənistanın Qarabağı işğal etməsində günahkar Polad Bülbüloğludu.**

**Hadisələr başlayan gündən yazıçı Qrant Matevosyan, eləcə də Armen Ciqarxanyan Azərbaycanın əleyhinə bir söz demədi. Qrantın əsərlərində Azərbaycan xalqına nə nifrət var, nə də qisas. Amma indiyədək onlar haqqında ermənilər heç bir söyüş yazmayıb. Armenin cavan qızını milliyyətçi, xəstə ermənilər hətta buna görə blokun ağzında öldürdülər də. Amma erməni xalqı onları söymədi. Çünki böyük sənətkarlar idi.**

**Amma biz Poladın fikirlərini kontekstdən çıxarıb və trolları işə salıb onu söyməklə, təhqir etməklə məşğuluq.**

**Poladı qoyduq bir kənara, hətta Şərq dünyasının ilk vokalçısı, ilk peşəkar opera sənətçisi Bülbülü də təhqir etməkdən çəkinmirik. O Bülbülü ki onun doğulduğu evi dağıdıblar, həyətdəki büstünü nə günə qoyublar, görmüsünüz .**

**Polad həyətdəki tut ağacını oxşayır, öpür.**

**Ev-eşiyi dağıdılan, qəbiristanlığı dağıdılan insanların yenidən öz doğulduqları kəndləri, şəhərləri, əzizlərinin yatdığı qəbiristanlıqları ziyarət edənlərin hissini başa düşürsünüzmü?**

**İşğaldan sonra Ağdam şəhərinə ayaq basanda ilk zəng elədiyim kiçik oğlumuydu. Bircə onu deyə bildim ki:**

**- Oğul, Ağdamdayam...**

**Və telefonu söndürdüm ki, oğlum mənim hönkürtümü eşitməsin.**

**Həyətimizə girəndə də xanımıma zəng elədim:**

**- Həyətimizdəyəm...**

**Yenə telefonu söndürdüm ki, hönkürtümü eşitməsin.**

**İndi Polad Bülbüloğlunun və ya Fərhad Bədəlbəylinin azad Şuşada bir qalib ölkənin azad vətəndaşı kimi keçirdikləri hissləri başa düşün!**

**Polad tut ağacını qucaqladı və oxşadı.**

**Ağdamdakı həyətimizdə mənim əkdiyim ağaclardan bircə gilas durur. Çox istədim mən də həmin gilası qucaqlayım, amma həm əsgərlər, həm də ANAMA icazə vermədi ki, həyət minadan tam təmizlənməyib.**

**Bəlkə 27 ildir həsrətlə məni gözləyən gilas ağacı məndən küsdü və indi tezliklə gedib onu qucaqlamasam, küsüb quruyacaq.**

**Hörmətli oxucu, bağışla səni yordum, elə şeylər var ki, qısa yazmaq olmur.**

**Polad həyətlərində ”Gəl, ey səhər”i oxudu...**

**Min şükür ki, o səhər gəldi...**

**Səməd Vurğunun bir beyti var, yazmıram, ağıllı oxucu başa düşəcək...**

## İltifat Hacıxanoğlu: Onları bezdirməyin



**Anar Cabrayıllını 20 ildir şəxsən tanıyıram. Hələ jurnalist olanda həmişə reportajları ilə insanların problemlərini həll olunmasına çalışıb.**

İstənilən jurnalist təsdiq edə bilər ki, ona hər hansı problemlə bağlı müraciət edəndə həm bu barədə səmimi açıqlama verib, həm də o problemin həllinə çalışıb. İndi hansısa "jurnalist"in onu ləkələməsi təqdirə layiq deyil. Səsyazmadan o saat hiss olunur ki, bu jurnalist kimdirsə hər dəqiqəbaşı bezdirdi üçün adamı tanıyır. Artıq bezdirib. Bir şeyi nəzərdə saxlayın, əziz jurnalistlər bazar günü mətbuat xidməti işləməsə də adam mədəni formada əvvəlcə cavab verib. Və jurnalist Qorxmaz Hüseynovun özü ilə danışandan sonra daha Anara niyə edib? Bir-iki normal mətbuat katibləri var, onları da bezdirib o biri adı olub özləri olmayanların cərgəsinə keçməyə məcbur etməyin.

# Şuşaya qalib kimi gəlmişik

## *Fərhad Bədəlbəyli və Polad Bülbüloğlu Şuşada*

**Əslən Şuşadan olan Azərbaycanın Xalq artisti, professor Fərhad Bədəlbəyli və Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bu gün Şuşa şəhərinə birgə səfər ediblər.**

Hər iki xadim səfər təəssüratlarını Trend-lə bölüşüb.

Fərhad Bədəlbəyli bütün Şuşanı gəzdiklərini bildirdi: "Birinci növbədə Polad Bülbüloğlunun evinə getdik. Təbii ki, çox kədərli hislər yaşadıq. Gördüklərimiz bizim üçün xoşagəlməz mənzərə idi. Çünki Şuşa düşmən tapdağı altında idi. Amma bu dəfə azad Şuşaya qalib kimi gəlmişik. Sağ olsun Cənab Prezidentimiz, şəxsən Polada tapşırıq verdi ki, gəl atanın evini təmir elə! Mən, Polad müəllim və memar Rizvan Zeynalov bir yerdə gəlib evə baxdıq. Bülbülün Ev muzeyi necə olmalıdır, necə təmir edilməlidir, orada hansı işləri görmək lazımdır kimi planlar quruldu. Bu, çox vacib idi. Sonra Şuşada yerləşdirilən güllələnmiş büstlərə baş çəkdik, Üzeyir Hacıbəyov, Xan qızı Natəvan və Bülbülün büstlərini ziyarət etdik. Ondan sonra əlbəttə ki, Cıdır düzündə olduq, gəncliyimizi yada saldıq".



Polad Bülbüloğlu da hədsiz duyğulu olduğundan söz tapıb danışmaqda çətinlik çəkdiyini dedi: "Mənim üçün çox xoşbəxt bir gündür. 30 ildir gözlədiyimiz an gəlib çatdı. O qədər duyğuluyam ki, heç söz də tapa bilmirəm deməyə, ona görə ki, atamızın yurduna gəlmişik, onun evinə girmişik... Düzdür, ev pis vəziyyətdədir, divarlar dağılıb, tavan düşmək üzrədir. Bir tərəfdən, evi belə görmək çox ağırdır, o biri tərəfdən də çox böyük qürurdur. Çünki qələbə qazanan bir xalqın nümayəndəsi kimi bu gün öz torpağıma, öz evimə gəlmişəm. Çox şadam ki, hörmətli Prezidentimiz bu anı bizə bəxş edib. Cənab Prezident Şuşaya səfəri zamanı bu evi məhz mənim təmir edəcəyimi söyləmişdi. Və Bu gün mən gəlmişəm. Öncə görüləcək işlərin layihəsi hazırlanacaq və sonra işə başlayacağıq".

**P.Bülbüloğlu əlavə etdi ki, bu gün Şuşanın çox gözəl havası vardı. Bir tərəfdə ağabaq qar, bir tərəfdə də gözəl Günəş, açıq səma: "Cıdır düzündən ətrafı seyr edəndə hər şey bizə yuxu kimi gəlirdi. Sanki bir film izləyirdik. Şükürlər olsun ki, artıq bu günü gördük. Ona görə də bu gün son 30 ildə mənim ömrümdə ən əziz, ən xoşbəxt bir gündür. Fürstdən istifadə edərək bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Qazilərimizə, müharibədə iştirak etmiş bütün hərbçilərimizə minnətdaram. Biz həmişə onlara borclu olacağıq. Azərbaycan xalqı heç vaxt bu qəhrəmanlığı yaddan çıxarmayacaq. Eşq olsun bizim orduMUZA, eşq olsun bizim hörmətli Prezidentimizə, Ali Baş Komandanımıza!".**

# Qazi Xaliq Məmmədov: "İkinci dəfə ayağa qalxmağa cəhd edəndə az qala ağrıdan huşumu itirəcəkdim"

***Bu gün sizi Vətən müharibəsində igidliklə döyüşmüş, qazi Xaliq Dərgah oğlu Məmmədovla tanışdıracağıq. Xaliq 1989-cu ildə Ağdam rayonu Baş Qərvənd ərazi icra nümayəndəliyinin Ayaqqərvənd kəndində anadan olub. Ailədə 3 övlad olublar. Evlidi 2 övladı var.***

### *Düşmənin vurduğu yaralardan biri - nakam Sadiq*

Yazıma kiçik bir ştrix çıxmaqla davam etmək istəyirəm: Ayaqqərvənd Ağdamın o kəndlərindəndir ki, düz 27 il düşmənlə təmas xəttinin 500- 800 metrliyində yerləşib. Ermənistan Silahlı Qüvvələrinin açdığı atəşlər nəticəsində onlarla insan o yerlərdə həlak oldu, ömürlük şikəst qaldı. Neçə-

***müzü yaşla dolduran ayrılıq nisgilinə öz gücü ilə son qoydu. Dünyanın super gücü olan dövlətlərin, beynəlxalq təşkilatların, sayılı-seçili siyasətçilərin 30 ildir acı bağırsaq kimi uzanan Qarabağ münaqişəsində bir qarış irəlləyiş əldə edə bilmədiyi halda Azərbaycanın Müzəffər Ordusu o problemi cəmi 44 günə həll etdi. Çünki o ordunun tərkibindəki siravi əsgərdən tutmuş yüksək çinli zabitə qədər yeganə arzusu alnımızdakı məğlubiyyət ləkəsini silmək, mənfur düşməni torpaqlarımızdan qovmaq, şəhidlərimizin, qətlə yetirilmiş günahsız soydaşlarının qisasını almaq idi. Bu müqəddəs arzuya çatmaq üçün ASQ şəxsi heyəti canlarını heçə sayaraq döyüşə atıldılar. Atıldılar və məhz elə buna görə də, qələ-***

onları aparırdı. Kömək gəlməsəydi, uşaqlar həlak ola bilərdilər. Əsgər və zabitlərin bir hissəsi döyüşü davam etdirir, bir qismi isə bizi mərmilərin altından çıxarırdılar. Mayor Əli ilə baş leytenant İlkin məni götürdülər. O an ağrı hiss edə bilməsəmdə, canımda nə yara olduğunu anlamasamda çalışırdım əllərindən çıxam, döyüşə yenidən atılam. Ayağa qalxmağa çalışsamda, qalxa bilmədim. Sanki ayağım əmrimə tabe olmurdu. İkinci dəfə cəhd edəndə ağrıdan az qaldı huşumu itirəm. Sən demə, qəlpə sol qasıq nahiyəmdən girmiş, sol sarğı nahiyəmi parçalamışdı. Parçalanmış hissədə xeyli sayda qəlpədə qalmışdı. O vəziyyətdə döyüş meydanından çıxartdılar və məni sanitar Şəmiyev Ruslana, (Ağdaş), MAXE Sadiq Hüseynova təhvil verdi-

daşlarımın şəhid olduğunu eşidəndə hönkür-hönkür ağlayırdım, tibb bacıları da mənə qoşulub ağlayırdı. Ümumiyyətlə qulluğumuzda elə cani-dildən , elə qayğı ilə dayanırdılar ki. dəfələrlə özümdən asılı olmayaraq, "canım xalqıma qurban" deməkdən özümü saxlaya bilmirdim.Bilirsiniz, çox adam deyir ki, qələbə təkcə əsgər və zabitlərimizin əsəridi. Amma vallah, bir əsgər, bir zabit kimi deyirəm, bu qələbə bütün xalqın əsəridir. Hospitalda olanda tanımadığımız şəxslər öz məvacibi ilə qoyun, quzu, dana gətirirdilər, həyətdə onu kabab edirdilər, elə şişdə, isti-isti yaralı əsgərlərə yedirdirdilər. Hospitala gələn maşın karvanlarının, insan axının ardı-arası kəsilmirdi.Qəribəydi, bizi ziyarətə gələnlərin gözü üzümüzdə qalırdı. Ufuldayanda doğmamız

neçə uşaq o atəş səsləri və qorxu altında xəstəlik tapdı. Bu faktın bariz nümunəsi Xaliqgilin ailəsində yaşandı. Xaliqin özündən böyük qardaşı -1983-cü il təvəllüdlü Sadiq ali məktəbə daxil olub, tələbə biletini əlinə alandan sonra ailəsi çox sevinə bilmədi. Çünki uşaqkən aldığı qorxu travması onun səhhətində ağır bir xəstəliyə səbəb olmuşdu. Tələbə Sadiq qan xərçənginə tutulmuşdu və o belə ciddi xəstəliklə uzun müddət mübarizə apara bilmədi. Ömrünün ən qaynar çağında -19 yaşında həyata göz yumdu.



Anası Şövkət xanım gözünün "ilk ovu" Sadiqin nakam taleyinə xısın-xısın ağlayıb qurtarandan, gözünün yaşını siləndən sonra həmişə bir söz deyirdi:" Allah etdiyiniz pislikləri cavabsız qoymasın".

Qayıdaq söhbətimizin davamına . Qəhrəmanımız orta məktəbi elə doğma kəndində bitirib. 2008-ci ildə Pirküşküldə Azərbaycan Ordusunun Quru Qoşun bölməsində həqiqi-hərbi xidmətə başladı və 2010-cu ildə oradan tərxis olundu.

2014-cü ilin avqustunda ermənilərin Azərbaycan Ordusuna basqını , muzdlu qatillərin köməkliyi ilə əsgərlərimiz üzərinə xaincəsinə hücumu və igidlərimizin şəhidliyi Xaliqi dərindən yaraladı. Odur ki, 2015-ci ildə MAXE-yə yazıldı. 2018-ci ildə müqavilənin vaxtı bitdi. Həmin dövrdə göstərdiyi yüksək peşəkarlıq və nöqsansız xidmətə görə, zabit dostlarının məsləhəti ilə hərbi sahə də peşəkar olaraq fəaliyyət göstərməsi üçün onu Təlim-Tədris Mərkəzində Gizir Hazırlıq Kurslarına qatıldı. Burada da seçildi və doğma hərbi hissəsinə qayıtdıqdan sonra N saylı hərbi hissənin3-cü taburunun, 9-cu bölüyündə taqım komandirinin müavini vəzifəsinə təyin edildi.

### *Qisas günü- Qələbə günü*

***2020-ci il sentyabrın 27-də başlanan vətən müharibəsi Azərbaycanın tarixi qələbəsi ilə başa çatdı. Qüdrətli ordumuz- Azərbaycan Silahlı Qüvvələri 30 ildən çoxdurki ürəyimizi yaralayan, gözü-***

***bə qaçılmaz oldu! Bizim Qazi döyüşlərin ən qızgın nöqtəsində idi, həm də ilk gündən!Nələr yaşadı, nələrə şahid oldu? Harda yaralandı deyə sualınız olursa, o zaman Gizir qardaşımızın dediklərinə nəzər salaq!***

### *Danışır Qazi Xaliq*

Balaca vaxtından müharibə filmlərin izləməyi çox xoşlayırdım. Xüsusən 1941-45 -ci il Böyük Vətən müharibəsinə aid filmin birini də qaçırmazdım. Orda döyüş ərəfəsində əsgərlərin üzündəki ifadələri diqqətimi çəkirdi. Kədərli, inamsız. Ölüm qorxusu...Amma həmin gün kəşf elədim ki, bəlkə də Azərbaycan Ordusu dünyada yeganə ordudur ki, əsgər və zabit heyəti döyüş meydanına toya gedən kimi sevincək , qələbə həyəcanınını yaşamaq üçün gedirdilər. İnanırsınız, 19-20 yaşlı gənc əsgərləri saxlaya bilmirdik. İrəli can atırdılar. O səbəbdəndə bizim əsgərlər döyüş meydanında nə yaralı, nə də şəhid qalmasına imkan vermirdilər. Elə olub ki, əsgərimiz şəhid olub, onu həmin ərazidən çıxarmaq böyük bir təhlükə demək idi, amma əsgərlərimiz ağır yaralansa da şəhidi mərmi atəşlərinin altından çıxardırdılar.

***Unutdum: döyüşə Ağdərə istiqamətindən başladıq. Qeyd etdiyim kimi igid oğullarla çiyin-çiyinə döyüşürdük. Şəhidimiz -baş leytenant İlkin Məmmədzadə ilə hələ 2018-ci ildən tanış idik. Ali təhsilliydi, mədəniydi, qorxmaz və igid oğlan idi. Öldürdüyü ermənilərin sayını dəqiq deyə bilmərəm, amma 20-dən artıq yaralı hərbçini döyüş meydanından çıxartdığının canlı şahidiyəm. Minaya düşərək hər iki gözünü itirən Qazi Amil Əliyevi də İlkin döyüş meydanından çıxartmışdı. Bu gün həyatda qalmağımın da səbəbkarı məhz 6 illik dostum İlkin Məmmədzadə və mayor Əli Səttarov olub.***

### *3 oktyabr hücum əmri*

aldıqdan sonra Ağdərə uğrunda döyüşə atıldıq. Seyidsulan tərəfdə-Ağdərənin girişində atəş xəttinə düşdük. Həmin döyüşdə ağır yaralandım. Ətrafımda 9 yaralı və 7 şəhidin olduğunu öz gözlərimlə gördüm. Yaralıların hamısı ağır deyildi amma qan

lər. Onlar məni 1200 m yolu kürəklərində gətirdilər. Təcili yardım maşını vurulduğuna görə,hərbi hissənin komandir müavini, polkovnik -leytenant Fəqan Əliyev bizi öz xidməti maşınına yığdı və sürücüyə əmr etdi ki, yaralıları tez Tərtər Mərkəzi Xəstəxanasına çatdırsın. Burda bizi ilkin təcili tibbi yardım etdikdən sonra - 5 oktyabrda Sarıcalı Hərbi Hospitalına çatdırdılar. Orada əməliyyat olunduq, qəlpələr bədənimdən çıxarıldı və sonra Bakıya-hospitala yola salındıq. Bir az özümə gələndə eşitdim ki, əziz qardaşım, xilaskarım, baş leytenant İlkin Məmmədzadə 7 oktyabrda "Tülkü dərəsi" deyilə ərazidə açıq döyüşdə hücum zamanı qəhrəmancasına şəhid olub . Tam sağalım mütləq İlkingilə gedəcəyəm. Onu böyüdən, tərbiyə verən valideynlərinin əllərindən öpəcəyəm. Həmçinin Lerik rayonun Loda kəndində anadan olmuş Gündüz Əliyev vətən yolunda həlak olmasımənə çox ağır təsir etdi. Sanki hər ikisi doğma qardaşlarım idi.






### *Səhiyyəmiz haqqında*

***da bir neçə kəlmə deməsəm minlərlə igidi həyata qaytarmış həkimlərimizin,***



***tibb işçilərimizin qarşısında özümü günahkar hesab edərəm. Deməli, 6-7 yaşım olanda yıxılmışdım, bərk zədələnmişdim. O vaxt anam çarpayımın başından əl çəkmirdi, yatmırdı yox e, gözünə yuxu getmirdi, başıma pərvanə kimi hərlənirdi. Yeməyimi, çayımı öz əlləri ilə verirdi. Üzür istəyirəm dönə-dönə: altıma qab gətirirdi. Yatağımı təmizləyirdi.***

Anamdan sonra ikinci dəfə o nəvazişi həkimlərimizdən gördüm.Hospitalda silah-

kimi"can, can" deyirdilər, azacıq gülümsünəndə ziyarətçilərimizin üzünə sanki gün doğurdu. Elə sevinirdilər ki...Bəli, bu qələbə tək Azərbaycan Ordusunun deyil, bütün Azərbaycan xalqının qələbəsidir.

Çox təəssüf edirəm ki, yenidən döyüşlərə qatıla bilmədim. Amma bu gün Ali Baş Komandan yenidən döyüş əmri versə, Allaha and olsun, sevinclə gedərəm!Tam sağalmasam da gedərəm!İnanırsınız, mən hələ də o müharibənin havasındayam, gözümü yuman kimi silahdaşlarım, döyüş yoldaşlarım gözümün qarşısından çəkilmir. Səhərə qədər yuxumda gah hücuma keçirəm, gah tankların-topların üstündən ermənilərə atəş açıram, gah şəhid olan əsgərlərimizin adını sadalayıram. Biz sözlə, hələ beynimdə müharibə bitməyib. O günlərin hər anının gündəlik həyatımda, xəyallar aləmində yaşayıram!

**Son olaraq: Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Xaliq Dərgah oğlu Məmmədov "Cəsur döyüşçü" medalı ilə təltif edilib. Xaliq kimi igid qazilərimizə və hazırda soyuq səngərlərdə Vətəni qoruyan döyüşçülərimizə Allahdan can sağlığı arzulayırıq!Tanrım Azərbaycan xalqını qorusun!Başımızın tacı olan Şəhidlərimizin ruhu qarşısında, onların valideynlərinin qarşısında baş əyirik!**

**Əntiqə Rəşid**

*Mehman CAVADOĞLU*

# Paşinyan stereotipləri qıra biləcəkmi?

***Dünən Yerevanın küçələrində Paşinyanın istefası tələbilə avtoyürüş keçirilib. Artıq bu eyni tələblə keçirilən ikinci avtoyürüşdü və küçələrdə şütüyən avtomobillərin sayından da aydın görünür ki, əslində, söhbət yeni formatda ciddi bir etiraz aksiyasından yox, höcətə düşmüş bir qrup tərs adamın cığallığından gedir. Çünki hələ hadisələrin isti-isti vaxtında beş-on min adamın fasiləsiz mitinq və yürüşlərlə, gurultulu bəyanatlar və qır-qışqırıqla bacarmadığı işi 20-30 həvəskar "avtoş"un görəcəyinə ümid bəsləmək sadlövhlükdən başqa bir şey deyil.***

***İkinci Qarabağ müharibəsində imzalanan "Təslim aktı"ndan sonra Ermənistan baş nazirinin hakimiyyətdə duruş gətirəcəyinə bəlkə heç özü də inanmırdı. Kabinetinin yağmalanmasından tutmuş sərt təhqirlər, nifrinlər, ölümünə çağırışlar onun nəinki hakimiyyət kürsüsünü qoruyacağına, hətta ilk günlər gizləndiyi bunkerdən sağ-salamat harasa çıxıb qaça biləcəyinə olan ümidlərin üstündən də xətt çəkmişdi.***

***Öz partiyasından başqa ölkənin əksər siyasi təşkilatları, keçmiş prezidentləri, hakimiyyət iştahına düşmüş hazırkı prezidenti, ictimai qurumları, məşhur ziyalıları, bir çox yüksək və orta ranqlı məmurlar, nəhayət, erməni siyasi varlığının bel sütunu sayılan Eçmiadzin kilsəsi, bir sözlə, ölkədəki bütün müharibə partiyaları, qurumları və fərdləri onun dərhal və şərtsiz istefasını tələb edirdilər.***

***Çoxdan siyasi meyitə dönmüş birisini təzədən xortdadıb baş nazir postuna vahid namizədliyini də irəli sürmüşdülər. Qorxusundan rəhbərlik etdiyi "Mənim addımım" alyansının səslərin 66 faizinə sahib olduğu parlamentin iclasına belə gedə bilmirdi.***

***Cəmi bir həftədən sonra məlum oldu ki, baş verənlər əslində nəlbəkidə qopardılan fırtınadan başqa bir şey deyil, "manqal inqilabı"nın lideri bu boyda ağır məğlubiyyətdən sonra hələ də öz yüksək reytinqini qoruyub saxlamaqdadı. Onlarla partiya və ictimai təşkilat iqtidarın ən ağır, sarsıdıcı məğlubiyyətə uğradığı bir vaxtda meydana beş-on mindən artıq adam çıxarda bilmirdi. Bunlar da əsasən həmin qurumların qatı fanatlarından və Qarabağdan qaçıb getmiş bir neçə min aqressiv ermənidən (necə də bizim 90-cı illərin əkiz mənzərəsidi) ibarət idi.***

***Paşinyanın siyasi təcrübəsi olmasa da siyasi duyumu çox güclü imiş. Situasiyanı vaxtında və düzgün qiymətləndirməyi bacardı, bütün rəqiblərini mat vəziyyətinə salan təkliflə, vaxtından əvvəl parlament seçkilərinə getmək təklifiylə çıxış etdi.***

***Özü də məsələni uzatmadan, vur-tut üç aydan sonra. Amma qana susayan rəqiblər bu təklifi qəbul etmədilər. Çünki meydandakı mənzərə gözlərini qorxutmuşdu, erməni xalqı onların avantürasına dəstək vermirdi, seçkiləri məğlub baş nazirə uduzmaq rüsvayçılığı hamısının siyasi mövcudluğuna son qoya bilərdi.***

***Amma məsələ təkcə erməni xalqının mövqeyi ilə bağlı deyildi. Baş nazirini məğlubiyyətdən sonra vaxtilə dirsək göstərdiyi Rusiyaya meyllənməsi, daha doğrusu, Kremlin sözəbaxan uşağına çevrilməsi onun təpədən-dırnağa Rusiyapərəst rəqiblərinin əsas "kozır"ını da əllərindən almışdı. Putin hər nədirsə peşəkar siyasətçidi, əzilmiş, sınmış Paşinyanın ona öz ənənəvi canişinlərindən daha sədaqətlə qulluq edəcəyinə əmin idi.***

***Baş naziri devirmək üçün dəridən-qabıqdan çıxan erməni siyasətçiləri, əslində, nə istədiklərini özləri də bilməyən başıpozuq bir dəstəydi. Növbədənkənar seçki təklifindən yayınmaqları təkcə bu seçkiləri uduzmaq xofuyla bağlı deyildi. Onlar, ümumiyyətlə, heç hakimiyyətə gəlmək istəmirdilər. Çünki gəlib edəcəkləri bir şey qalmamışdı. Ordu dağılmış, iqtisadiyyat məhv olmuş, cəmiyyət deqradasiyaya uğramış, güvəndikləri Rusiya da "Paşinyan tərəfə keçmişdi". Təxminən "Aç qapını, gələk səni öldürək" xorunun personajları durumuna düşmüşdülər.***

***Ən başlıcası isə yuxarıda dediyimiz kimi gəlib edəcəkləri bir şey qalmamışdı. 1918-ci ildə Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikasının Daşnaksütun partiyasından olan ilk baş naziri Ovanes Kaçaznuni başıbaşlara dəyəndən sonra, 1924-cü ildə partiyasının Rumıniyada keçirilən qurultayındakı hesabat məruzəsi də elə bu cür adlanırdı: "Daşnaksütun" partiyasının edəcəyi bir iş qalmayıb". Bu, əslində, hesabat məruzəsindən çox bir tövbə duasıydı və partiyanın, bütövlükdə yaratdıqları miflərin əsirinə çevrilmiş erməni millətçilərinin öz xalqının başına açdığı oyunların canlı salnaməsiydi (yaxın günlərdə "Ədalət" qəzeti və adalet.az saytı bu məruzəni hissə-hissə tam şəkildə oxucuların diqqətinə çatdıracaq. Odur ki, ayrı-ayrı sitatlarla vaxt almaq istəmirəm).***

***O. Kaçaznuni yazdıqları bugünkü erməni siyasətçilərinin hamısına aiddir. Çünki hansı ad altnda fəaliyyət göstərməsindən asılı olmayaraq bu gün ölkədəki bütün siyasi partiyaların təməl prinsipləri məhz yaradıcılarının üz döndərdiyi "Daşnaksütun"un xəstə ideologiyasına əsaslanır. Zaman-zaman eyni senarilərlə hərəkət edərək hər tarixi mərhələnin sonunda öz xalqını yeni-yeni fəlakətlərə sürükləmək bu topluma rəhbərlik edən adamların sanki şakərinə çevrilib.***

***Güman etmək olardı ki, 44 günlük müharibənin nəticəsi olaraq başlarına dəyən "Dəmir Yumruq"dan sonra onlar, nəhayət, ayılacaq və öz xalqının gələcək inkişafının qonşularla əbədi düşmənçilikdən yox, əməkdaşlıq və dostluq münasibətlərindən keçdiyini anlayacaqlar. Təəssüf ki, belə olmadı.***

***Qisasçılıq hissilə alışıb yanan, "Daşnaksütun" ideyasına mübtəla "liderlər" yenə də siyasi səhnədə at oynatmağa başladılar. İndi onların arasında Paşinyan yeganə praqmatik düşüncə sahibi kimi görünür. Ancaq onun bu praqmatik davranışlarını nəinki rəqibləri, heç yaxın silahdaşlarının da bir qismi bölüşmür ki, bu da baş nazirin manevr imkanlarını, onun daşlaşmış stereotipləri qıracağına olan ümidləri azaldır.***

***İkinci ümidverici məqam isə hələlik müharibə partiyasının avantürasına qoşulmayan Ermənistan ermənilərinin əksəriyyətinin Paşinyanın tərəfində olmasıdı. Amma bu xalq sevgisinin nə qədər çəkəcəyini söyləmək çox çətindi. Yaralar sağalandan, nəsillər dəyişəndən sonra tarix yenidən təkrar olunacaq, yoxsa?.. Nə qədər ki, "Daşnaksütun", "Eçmiadzin" və "Diaspor" ruhu bu toplumun ruhuna hakimdi, bu suala birmənalı şəkildə müsbət cavab vermək mümkün deyil.***

# 39 GÜN ÖLÜMLƏ ƏLBƏYAXA

## Yaxud həyat eşqi

**Cek Londonun gözəl bir hekayəsi var - ”Həyat eşqi”. Əsərin hər iki qəhrəmanı yaşamaq uğrunda mücadilə və mübarizə aparır. Onlardan birinin adı səhv eləmirəmsə, Bildir, digərinin adını unutmuşam. Hər ikisi çətin anlardan, ölümün içindən çıxmağa can atır. Çox çətinlikləri dəf edib, şaxta adamı qılınc kimi kəsəndə bir çaydan keçirlər. Bil çaydan keçir, onun dostun isə çayda ayağı sınır və çətin anlarla üzləşir. Nə qədər dostuna yalvarırsa, ona kömək eləmir.**

Dostu çıxıb gedir, o isə qarlı və şaxtalı havada günlərlə suda qalır. Axırda bütün gücünü toplayıb adamı qılınc kimi kəsən şaxtalı sudan çıxmağı bacarır. Çayın vadisinə göz gəzdirir, heç kəsi görmür. Sınıq ayağı ilə qarın üstüylə uzun müddət sürünür, xeyli məsafə qət edir. Və bir də göz gəzdirib görür ki, qarın üstündə dostunun sür-sümüyü qalıb. Yəni o, canavarların yeminə çevrilib. Heysiz halda bir az da sürünür və bu vaxt canavarlardan birinin hənirtisini eşidir. Və o canavar da onun sifətini yalayıb dişini boğazına keçirmək istəyir. Bu vaxt oğlan cəld tərpənib bütün qüvvəsiylə canavarın boğazından yapışır və onu boğub öldürür. Çətinlikləri arxada qoyub dənizin sahilinə çatır. Gəmidə olan adamlar onu tapır, gəmiyə aparır və həyatını xilas edir.

### *Bu epizodu təsadüfən xatırlamadım*

***Çünki bu gün də ölümlə çarpışan, xüsusən də koronavirusla döyüşən, mücadilə və mübarizə aparan insanlar var. Kimin iradəsi güclüdürsə, kimdə həyat eşqi qüvvətlidirsə və kiməsə ulu Yaradan kömək eləyirsə, bu görünməyən düşmənin pəncəsindən xilas ola bilir. Və o görünməyən düşmən hər gün, hər saat bizim yaxamızdan, boğazımızdan yapışa bilər.***

... Və mənim də tanıdığım neçə-neçə dost bu xəstəliyə düçar olub. Hətta onlardan bir neçəsi Allahın dərgahına qovuşub. Yaxın qohumum və istedadlı hərbi jurnalist Rəşad Süleymanov da bu virusun qurbanı oldu. Allah o dünyasını versin. Bir dostum da var: yazıçı-publisist, Prezident təqaüdçüsü, neçə-neçə kitabların müəllifi və 40 ildən çox gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan böyük ziyalı Səməndər Məmmədov! Səməndər müəllim həm də uzun illər Sabunçu rayonundakı 271 nömrəli tam orta məktəbdə direktor vəzifəsində çalışıb. İnanın, o yaş həddi ilə təqaüdə göndəriləndə onu kollektiv göz yaşıyla yola salıb. Deyiblər ki, müəllim, sənin yerin həmişə görünəcək. Çünki Səməndər Məmmədov həmişə haqq-ədaləti, həqiqəti hər şeydən üstün tutub. Ona görə də hamının qarşısında alnı açıq, üzü ağ olub.

### *Səməndər müəllimin*

özünü də, həyat yoldaşını da koronavirusa yoluxduğuna görə, çox ağır vəziyyətdə Bakıdakı ”Yeni klinika”ya aparıblar. Və aparan kimi də vəziyyəti mürəkkəb olduğu üçün süni tənəffüs aparatına qoşublar. Yüksək şəkəri və təyziqi olan adamları bu xəstəlikdən xilas etmək elə də asan deyil. Həkimlərlə yanaşı, gərək sənin özünün də güclü iradən, dözümün və mübarizliyin ola. Ən başlıcası isə Allah-Təala səni ölümün pəncəsindən almalıdır. Qurban olduğum ulu Yaradan da əməli-saleh, namuslu və vicdanlı insanlara həmişə arxa durur. Və böyük ziyalı Səməndər Məmmədov da yaşadığı ömrü şərəflə, ləyaqətlə davam etdirib. Ən azından ona görə ki, o harda olubsa, harda yaşayıbsa, harda işləyibsə, haqqı nahaqqa verməyib.



***Düz 39 gün ölümlə əlbəyaxa olub... düz 39 gün Allahdan və həkimlərdən ümidini üzməyib... düz 39 gün ailəsinə, balalarına və nəvələrinə qovuşacağı günü səbirsizliklə gözləyib. Həyat yoldaşı tez sağalıb ayağa qalxıb. Bunu eşidəndən sonra onun qəlbində ümid və inam bir az da artıb. İnanıb ki, güclü olsa, qüvvətli olsa, o da sağalacaq, ailəsinin, balalarının yanına qayıdacaq. Bəzən elə olub ki, həkimlər də ondan əlini üzüb. Amma o, nə Allahdan, nə də həkimlərdən əlini üzməyib. İnanıb ki, onu ayağa qaldırsa, Allah və həkimlər qaldıracaq.***

### *Hər səhər açılanda*

pəncərədən günəşi görməsə də, ürəyindəki günəşin hərarətini hiss edib. Xüsusən də həkimi Fərid Quliyevin diqqəti və qayğısı onun ümidlərini bir az da artırıb. Onun ümidlərini artıran Azərbaycan Tibb Universitetinin könüllülərdən ibarət olan tələbəsi Seymur idi. Seymur 4-cü kursda oxusa da, bir həkim sevgisiylə, bir həkim məhəbbətiylə həmişə bu böyük ziyalıya ümid verib. Eyni zamanda, Gültac həkimin isti nəvazişi, səmimi münasibəti Səməndər müəllimin həyat eşqini bir az da şölələndirib. Tibb bacılarından Aybənizin, Humayın, Şöhrətin, Türkanın, xadimə Humay xanımın ona ana-bacı nəvazişi heç vaxt yadından çıxmır.

Yadından çıxmayan həm də onun dostlarının, tanışlarının, tələbə yoldaşlarının, qonşularının hər gün səhhətiylə maraqlanması olub. Elə bir gün olmayıb ki, qonşularından kimsə onların evinə baş çəkib, onunla maraqlanmasınlar. Bütün bunlar hamısı Səməndər Məmmədovun insanlar qarşısında qazandığı hörmət və məhəbbətin nəticəsidir. Rayon icra hakimiyyətinin başçısından tutmuş, müavini Rəna xanıma qədər onunla əlaqə yaradıblar, lazımi köməklik göstəriblər. Yaxın dostları Süleyman müəllim, Müzəffər müəllim ən çətin anda ona arxa durublar. Çünki Səməndər Məmmədov həmişə ən çətin anlarda dostlarının yanında olub. Birinin başı ağrıyan kimi, biri xəstəxanaya düşən kimi Səməndər müəllimi yanlarında görüblər.

Səməndər Məmmədova çətin vəziyyətdə öz şagirdi olmuş və həmin məktəbi fərqlənmə ilə bitirmiş, sonradan Tibb Universitetini də fərqlənmə diplomu ilə bitirən Afaq Nəsibova ilk günlər onun müayinəsi zamanı və xəstəliyin aşkar edilməsində bir həkim olaraq böyük yardım göstərib.

***Belə baxıram ki, insanlar ağır günündə bir-birinə arxa dursalar, söykək olsalar, insanın hər bir çətinliyi arxada qoymaq olar. Yoxsa bir də görürsən ki, dərdinin başdan aşdığı bir vaxtda kimsə sənə kömək etmək əvəzinə, əksinə, sənin dərdinin ”ayaqlarından” yapışıb bir qədər də dərdini ağırlaşdırır. Bax, belə insanlar şeytan adamlardı. Nə yaxşı ki, şeytan adamlar aramızda o qədər də çox deyil.***

### *Aramızda insanlar adamlar,*

mələk adamlar, çiçək adamlar çox olanda həyatımız da gözəl olir. Bayaq dedim axı, Səməndər müəllim 40 ildən çox pedaqoji fəaliyyətlə məşğul olub. Elə 29 il məktəb direktoru işləyib. 271 nömrəli tam orta məktəbdə isə uzun illər direktor vəzifəsində çalışıb. Kollektiv onun xəstə olduğunu bilən kimi əlaqə yaradıb, öz köməkliyini təklif edib. Məktəbin yeni direktorundan tutmuş, direktor müavini Rüxsarə Əlizadəyə qədər onunla maraqlanıblar. Tez-tez telefon açıblar, öz isti münasibətlərini bildiriblər.

... 39 günlük ölümlə əlbəyaxadan sonra Səməndər Məmmədov ayağa qalxıb, sağalıb və ailəsinə, evinı dönüb. Elə evinə qayıdan kimi birinci mənə telefon açdı. Dedi ki, müəllim, artıq evimdə, balalarımın yanındayam. Sevincimdən gözlərim doldu. Çünki o, xəstəxanada yatanda hər səhər ”Qurani-Kərimi” oxuyandan sonra ona dualar eləyərdim. Tək dua eləyən mən deyildim, mənim ailəm, balalarım, qonum-qonşular, onun dosları və doğmaları idi. Görünür, Allah-Təala bizim dualarımızı qəbul elədi və onu həyata qaytardı. Sonra da Səməndər müəllim dedi ki, ağır və çətin gündə ölümlə əlbəyaxa olduğu anlarda kimlər mənimlə, səhhətimlə, ailəmlə maraqlanıbsa, hamıya öz təşəkkürümü bildirirəm.

**... Bir daha onun sevincinə qoşuldum və sevindim. Sevindim ki, Allahın qoruduğu və hifz etdiyi insanları heç bir xəstəlik məhv edə bilməz. Çünki o adamlar mələkdi, o adamlar insandı, o adamlar çiçəkdi. Onların çöhrəsindən nur yağır. Çöhrəsindən nur yağan və Allahın qoruduğu dostum Səməndər Məmmədova deyirəm: həmişə öz ocağında, öz evində, balalarının yanında olasan! Sənin elədiyin yaxşılıqları ulu Yaradan öz qabağına çıxardı. Ona görə də yaxşı insan, yaxşı adam olaq gərək...**

**Faiq QİSMƏTOĞLU**



*Zaur Əliyev*

## "Sıravi Rayanın xilas edilməsi"

**Tom Hanksın baş rolda oynadığı ”Sıravi Rayanın xilas edilməsi” adlı filmdə belə bir süjet xətti var: Bir ailənin bir neçə oğlu ikinci dünya müharibəsində ölür və ailənin sonuncu övladını müharibəyə aparılar.**

**Anası Prezidentə məktub yazır ki, ailəmizin son nümayəndəsi də ölsə nəslimiz davam etməyəcək. Prezidentin fərmanı ilə bir dəstə cəbhə bölgəsində Rayan adlı əsgəri xilas etmək üçün ən qaynar döyüş yerinə gedirlər , çoxu ölür amma əsgəri xilas edib evlərinə yola salırlar.**

**Bunu niyə yazdım. İkinci Qarabağ müharibəsi zamanı elə ailələr oldu ki, evdə olan iki oğul yaxud üç oğlu hərbiyə çağırdılar və onların hamısı şəhid oldu.**

**Bir nəsli davam etdirəcək oğul qalmadı həmin ailələrdə...Yaxud evin tək oğlunu çağırdılar və o da döyüş zamanı vətən uğrunda şəhid oldu**

**Olmazdı ki, evdə iki oğuldan birini çağırardılar? Axı bir nəslin yoxa çıxması millətin inkişafına mane olur. Planlı şəkildə olması daha doğru olmazdı ? Heç olmasa bir ailədə, tək övlad varsa onu, iki yaxud üç oğul var idisə onların birinin evində qalaraq nəslini davam etdirmək imkanı verərdilər? Düzdü hər iki yaxud üç oğlu şəhid olmasını heç kim proqnoz edə bilməzdi amma müharibədir bu.**

**Güllə, top, raket heç kimi tanımır və düşdüyü yerdə, dəydiyi yerdə ancaq bəla gətirir. ..**

**İndi həmin ailələrdə nəsil kəsildi birdəfəlik ...Bir ailə, bir genefond yoxa çıxdı...**

**Heç olmasa indi iki oğlu hərbi xidmətə, yaxud tək oğul xidmətə çağrılırsa bir az təhlükəsiz yerdə birini yaxud tək oğlu təyin etsinlər**

**Genefond məsələsi çox ciddidir və bir nəslin artması dayandısa təbiətin balansı pozulur.**

# "Qarabağ Azərbaycandır" deyən ermənilər



*Ələmdar Məmmədov, hüquqşünas*

**Yaxınlarda Ermənistan Respublikasının prezidenti Armen Sarkisyanın Rusiyanın RBK kanalında yayımlanan müsahibəsinə baxırdım. A.Sarkisyan Qarabağın dağlıq hissəsinin əzəli erməni torpağı olmasından,1921-ci ildə bolşeviklər tərəfindən həmin ərazinin zorla Azərbaycanın tərkibinə qatılmasından,bu məsələdə Stalinin xüsusi rolu olmasından,həmin vaxt qeyd edilən ərazidə 390 min ermənininin yaşadığını,lakin azərbaycanlıların onları sıxışdırması nəticəsində getdikcə saylarının azalaraq keçən əsrin 90-cı illərində cəmisi 100-120 min erməni qalmasından danışırdı.Əsəbiləşdiyimdən müsahibəyə axıra kimi baxa bilmədim. İki məsələ məni təəccübləndirdi.Birincisi, Prezident vəzifəsini daşıyan şəxsin geniş auditториya qarşısında ağ yalanlar danışması və savadsızlığı,ikincisi bizim rəsmilərin xüsusi ilə cənab Prezidentin belələrilə necə dil tapıb danışa bilməsi.**

Əvvəla onu qeyd edim ki,Azərbaycanda ticarət və xidmət sahələrini zəbt etmiş bütün ermənilər kimi, Dağlıq Qarabağda yaşayan ermənilər də başqalarından yaxşı yaşayıb. Məlum olduğu kimi SSRİ tərkibində olan 15 müttəfiq respublikadan yalnız RSFSR və Azərbaycan SSR dotasiyada olmayıblar.Başqa sözlə bu iki müttəfiq respublikanın ümumi daxili məhsulu öz ehtiyaclarını artıqlaması ilə ödəyib.Azərbaycanda isə əhalinin real gəlirinə görə DQMV-i həmişə ön sırada olub. 1987-ci ilin rəsmi statistikasına baxdıqda DQMV-də ümumi daxili məhsulun əhalinin sayına nisbəti ümumazərbaycan göstəricisindən 1,4 dəfə artıq olub.

### *Stalinin Qarabağ məsələsində*

***həqiqətən "xüsusi rolu"olub.Lakin həmişə Azərbaycanın əleyhinə!Gəlin faktlara müraciət edək.***

***29 noyabr 1920-ci ildə Ermənistan da sovet hakimiyyəti quruldu.Üç gün sonra 2 dekabr 1920-ci ildə Stalinin "Pravda"qəzetində məqaləsi dərc olundu.Həmin məqalədə Stalin Qarabağın,Naxçıvanın və Zəngəzurun Ermənistan SSR-ə verilməsinin zəruriliyini əsaslandırmağa çalışırdı.***

Bundan istifadə edən bolşevik cildinə girmiş daşnaklar yenidən fəallaşdılar və xüsusi ilə Naxçıvanın statusu ilə əlaqədar 16 mart 1921-ci il tarixli Moskva müqaviləsindən sonra RK(b)P-nin MK-nə və şəxsən Xalq Komissaralrı Sovetinin sədri V.Leninə çoxlu sayda müraciətlər etdilər. Nəhayət 04 iyul 1921-ci ildə N.Nərimanovun da daxil olduğu bolşeviklər partiyasının 8 nəfərdən ibarət Zaqafqasiya bürosunun plenumunda mərkəzin nümayəndəsi Stalinin iştirakı ilə Dağlıq Qarabağın statusu ilə əlaqədar məsələ müzakirəyə çıxarıldı.

Həmin iclasın protokoluna baxarkən məsələlərin qoyuluşunda ziddiyyət və məkr aydın görünür.(Protokolun surəti əlavə olunur).

**Из протокола №11**

**вечернего заседания Пленума Кавбюро ЦК РПК**

**от 4 июля 1921 г.**

**Присутствовали: члены ЦК РПК: Сталин, члены Кавбюро: тт. Орджоникидзе, Махарадзе, Нариманов, Мясников, Киров, Назаретян, Орахелишвили и Фигатнер. Секретарь Кавбюро комсомола Брейтман. Члены ЦК Грузии: Цинцадзе, Мдивани и Сванидзе.**

**Слушали:**

**1. Карабахский вопрос.**

**При обсуждении этого вопроса выявились две точки зрения и были поставлены на голосование следующие вопросы:**

**а) Карабах оставить в пределах Азербайджана.**

**Постановили:**

**Голосуют за: Нариманов, Махарадзе, Назаретян.**

**Против: Орджоникидзе, Мясников, Киров, Фигатнер.**

**б) Нагорную часть Карабаха включить в состав Армении/ Голосуюут за: Орджоникидзаде, Мясников, Фигатнер, Киров.**

**г) плебисцит провести только в Нагорном Карабахе, т.е. среди армян.**

**Голосуют за: Орджоникидзе, Мясников, Фигатнер, Назаретян Постановлено: Нагорный Карабах включен в состав ССР Армении, плебисцит провести только в Нагорном Карабахе.**

**2. Заявление тов. Нариманова в виду той важности, которую имеет Карабахский вопрос для Азербайджана, считаю необходимым перевести его на окончательное решение ЦК РПК.**

**Ввиду того, что вопрос о Карабахе вызвал серьезное разногласие, Кавбюро ЦК РПК считает необходимым перенести его на окончательное решение ЦК РПК.**

**При голосовании по вопросу о Карабахе (тов. Орахелашвили отсутсвовал). п.п. Секретарь Кавбюро ЦК РПК Фигатнер.**

**Верно: Управдел**

**Верно: подпись.**

**a)** Qarabağın Azərbaycanın tərkibində saxlamaq.

Bu məsələnin müzakirəsində Stalinə yaxınlığı ilə seçilən Orconikedze, bir neçə gündən sonra AK(b)P-nin I katibi seçiləcək Kirov,Oraxaşvili,Myasnikov (Myasnikyan) ermənilərin xeyrinə xüsusi canfəşanlıq göstərirdilər.Gərgin müzakirələrdən sonra 3 nəfər lehinə (Nərimanov,Maxaradze,Nazaretyan),4 nəfər əleyhinə olmaqla(Orconikedze,Kirov,Myasnikov,Fiqatner) bu məsələ qəbul edilmədi. Müzakirələrdə aktiv iştirak edən Oraxaşvili hansı səbəbdənsə səsvermədə iştirak etməmişdir.Müzakirənin davamı və məsələlərin qoyuluşu daha maraqlıdır.

**(b)** Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi və...

**(q)** Qarabağın dağlıq hissəsində yalnız erməni əhalisi arasında rəy sorğusu keçirilməsi.

### *Rəy sorğusunun*

məhz Qarabağın dağlıq hissəsində, həm də yalnız erməni əhalisi arasında keçirilməsi bütün beynəlxalq və digər hüquq normalarına zidd idi. Məlumdur ki,bolşeviklər və xüsusi ilə Stalin savadlı və yüksək intellektə malik insanlar olublar.Bəs erməniləri və onların himayədarlarını qorxudan nə idi ki,belə savadsız və açıq-aşkar birtərəfli sənəd tərtib edirdilər?

Hələ Azərbaycan müstəqil dövlət olarkən 22 may 1919-cu ildə RK(b)P-nin Qafqaz bürosunun Bakı komitəsinin sədri A.Mikoyan Leninə vurduğu teleqramda- Erməni hökumətinin agenti olan daşnakların Qarabağın Ermənistana birləşdirilməsi tələbinin əsassızlığını, Qarabağ ermənilərinin heç bir vaxt Ermənistanla əlaqəsinin olmamasını, erməni kəndlilərinin V qurultayının da Azəğrbaycanın tərkibində qalmaq barədə qərar qəbul etməsini göstərmişdir.(Həmin məktubun surəti əlavə olunur)

**"Дашнаки, агенты армянского правительства, добиваются присоединения Карабаха к Армении. Но это для населения Карабаха значило бы лишиться источника своей жизни в Баку и связаться с Эриванью, с которой никогда и ни в чем не были связаны. Армянское крестьянство на пятом съезде решило присоединиться к Азербайджану"**

Bu sənəddə bir neçə maraqlı məqam vardır.

Əvvəla gələcəkdə azərbaycanlıların düşməni olacaq A.Mikoyanın faktlar qarşısında aciz qalaraq Qarabağın Azərbaycan ərazisi olmasını etiraf etməsi çox önəmlidir.

**İkinci diqqət çəkən məsələ** Erməni kəndlilərini V qurultayının qərarıdır ki,həmin qərarla hətta ermənilərində Azərbaycanın tərkibində qalmaq istəyi əks olunmuşdur.Məhz ermənipərəst qüvvələri qorxudan da bu məsələ idi.Fikrimizcə həmin kəndli qurultayının qərarı araşdırıcı alimlər tərəfindən tapılmalı və ictimaiyyətə təqdim olunmalıdır.

**Üçüncü mühüm məsələ** - rus şovinizmini daim pisləyən,Rusiya imperiyasını "xalqlar həbsxanası" adlandıran,rus inqilabını heçə sayıb dünya inqilabı haqqında düşünən,daim beynəlmiləlçilikdən dəm vuran Leninin də imperialist təxəllüyündən əl çəkə bilməməsi aydın şəkildə görünür.ADR-sı müstəqil dövlət olmağına baxmayaraq artıq bolşeviklər başqa dövlət və dövlətlərin əraziləri barədə düşünürdülər.

***İkinci məsələ yəni Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi səsə qoyulur.4 nəfər lehinə (Orconikedze,Kirov,Myasnikov,Fiqatner) 3 nəfər əleyhinə (Nərimanov,Maxaradze,Nazaretyan),olmaqla Dağlıq Qarabağın Ermənistan Respublikasına verilməsi barədə qərar qəbul edilir.***

### *Bu məsələ ilə razılaşmayan Nərimanov*

kəskin şəkildə etirazını bildirir.Onun etirazı protokolda əks olunmaqla məsələnin partiyanın Mərkəzi Komitəsində, yəni Moskvada müzakirə olunması qərara alınır.Məlimdur ki,partiyanın Mərkəzi Komitəsinin plenumları müəyyən müddətlərdə,adətən üç aydan bir keçirilirdi.Lakin gecə yarısı yekunlaşan iclas səhər tezdən yenidən öz işinə başladı.Bunun səbəbi nə idi?Stalini və digər ermənipərəstləri kim məcbur etdi ki,müzakirəsi bir neçə aydan sonra Moskvada nəzərdə tutulan məsələ 12 saat keçməmiş yenidən müzakirəyə çıxarıldı?

**Haşiyə:** Hümmət partiyasının üzvü Nərimanovun yaxın dostu,1934-1937-ci illərdə Azərbaycan SSR Ali Məhkəməsinin sədrinin I müavini işləmiş,1937-ci ildə həbsə alınsa da 10 aydan sonra bəraət alaraq,ömrünün axırına kimi vəkillik fəaliyyəti ilə məşğul olan Mirhəşim Salayevin söhbətlərindən məlum olur ki,həmin iclasda N.Nərimanov Stalinin üstünə qışqıraraq deyir:-Məsələ bir sutka ərzində həll olunmasa mən nə edəcəyimi yaxşı bilirəm.Həmin gün axşam saatlarında Nərimanov və Stalin Leninlə bir neçə dəfə telefonla danışırlar.

Səhərisi günü yəni 5 iyul 1921-ci ildə büro həmin tərkibdə yığışıb məsələyə təzədən baxır.

4 nəfər lehinə 3 nəfər bitərəf qalmaqla Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibində saxlanması barədə yeni qərar qəbul edilir.Mövqeyini-səsini dəyişən kim olur?-Birinci müzakirədə ermənilərin xeyrinə fəallığı ilə seçilən Orconikidze.Orconikidzeyə kim təsir edə bilərdi?-Stalin!Stalinə kim təsir edə bilərdi?-Lenin!Leninə kim təsir edə bilərdi?-Əlbətdə, N.Nərimanov!

(Protokolun surəti əlavə olunur).

**Из протокола №12**

**Заседания Пленума Кавбюро ЦК РПК от 5 июля 1921 г.**

**Присутствуют: Член: ЦИК РПК Сталин, члены Кавбюро: тт. Орджоникидзаде, Киро, Назаретян, Орахелишвили, Фигатнер, Нариманов, Мясников.**

**Наркоминдел АССР Гусейнов.**

**Слушали:**

**1. Тт. Орджоникидзаде и Назаретян возбуждают вопрос о пересмотре постановления предыдущего Пленума о Карабахе.**

**Постановили:**

**Исходя из необходимости националного мира между мусульманами и армянами и экономической связи верхнего и нижнего Карабаха, его постоянной связи с Азербайджаном Нагорный Карабах оставить в пределах АССР, представив ему широкую областную автономию с административным центром в г. Шуше, входящей в состав автономной области.**

**Голосуют: 4; воздержалось 3**

**б) поручит ЦК Азербайджана, определить границы автономной области и представить на утверждение Кавбюро ЦК РПК.**

**в) поручить Президиуму Кавбюро ЦК переговорить с ЦК Армении и ЦК Азербайджана о кандидате на Чрезвычкома Нагорного Карабаха.**

**г) объем автономии Нагорного Карабаха определить ЦК Азербайджана и представить на утверждение Кавбюро ЦК.**

**Секретарь Кавбюро ЦК РПК Фигатнер С подлинным верно:**

**Управдел.**

Çıxışlarının birində dövlət başçısı Qarabağ məsələsində N.Nərimanovun xüsusi rolunu qeyd etməklə bərabər, digər sağlam düşüncəli insanların da olmasını vurğuladı.Kimdir bu sağlam düşüncəli insanlar?

Məlumdur ki,müzakirələrdə iştirak edənlərdən bir nəfər rus (S.Kirov),bir nəfər yəhudi(Fiqatner),4 nəfər gürcü(Stalin,Oraxelişvili,Orconikedze,Maxaradze) 2 nəfər erməni (Myasnikov,Nazaretyan) və yeganə azərbaycanlı N.Nərimanov idi.Müzakirədə səs hüququ olmayan Breytman,Gürcü kommunistləri Tsinnadze,Mdivani,və Svanidze də iştirak edirdilər.(Azərbaycan SSR xarici işlər naziri Hüseynov yalnız 5 iyul 1921-ci il tarixli müzakirədə iştirak etmişdir).

### *Müzakirələrdə*

Nərimanovla həmfikir olanlardan biri gürcü Maxaredzedir.İkinci şəxs nə qədər qəribə olsa da erməni Naxaretyandır.Nazaretyan və Maxaredze bütün məsələlərdə Nərimanovla bir cəbhədən çıxış etmişdilər.

**Qeyd: Nazaretyan Amayak Markaroviç 1889-cu ildə Tiflis şəhərində tacir ailəsində anadan olmuş,1905-ci ildən RSDFP-nin üzvü olmuş,1917-ci ildə oktyabr çevrilişində aktif iştirak etmiş,Gürcüstanda milli hökumətin devrilməsində mühüm rol oynamışdır.1920-1922-ci illərdə RK(b)P-nin Qafqaz bürosunun katibi olmuşdur.Stalinlə yaxın dost olmasına baxmayaraq Qarabağ məsələsində ədalətli mövqe tutaraq N.Nərimanovla həmfikir olmuş,məhz bu səbəbdən Leninin təbirincə desək"Baş katib olduqdan sonra əlində məhdudiyyətsiz hakimiyyət toplamış" Stalin tərəfindən mühüm postlardan kənarlaşdırılmış və 1937-ci ildə siyasi büro üzvlərinə sui-qəsd təşkil etmək ittihamı ilə həbs olunaraq güllələnmişdir.**

Göründüyü kimi Qarabağın dağlıq hissəsinin Azərbaycan ərazisi olması hətta bolşevik ermənilərdə də şübhə doğurmamışdır.

# Covid-19-a qarşı vaksin mövcüd deyildir



ABDULLA ŞIXLİNSKİ,
HƏKİM-PSİXİATR

**Koronavirusa qarşı vaksinin hazırlanması PRİNSİPCƏ mümkün deyildir. Nəyə görə? Gəlin Təbabət elmi tərəfindən yeni vaksinin hazırlanma prinsipləri ilə tanış olaq. Yeni unsan vaksininin hazırlanması UZUNMÜDDƏTLİ və BAHALI prosesdir. Vaksin bioloji mənşəli tibbi preparatdır.İNSAN VAKSİNİNİN HAZIRLANMASI ÜÇÜN 25-30 il, veterenariya vaksinlərinin hazırlanması üçün 10-15 il vaxt lazımdır. İnsan vaksininin hazırlanma müddəti (25il-30 il) aşağıdakı mərhələləri əhatə edir:**

**1.** Baza tədqiqatları- Bu mərhələ özü də bölünür. **A)** törədicinin əsaslı laborator müayinəsi. **B)** Preparatın birincili konstruksiyasının seçimi. **2.** Klinikaya qədərki tədqiqatlar-Bu mərhələ bölünür. **A)** Hüceyrə qruplarında sınaqlar(in vitro). **B)** Laboratoriya heyvanlarında sınaqlar (in vivo) **B)** Preparatın təhlükəsizliyinin və effektivliyinin qiymətləndirilməsi. **Q)** Ciddi yan təsirlərin öyrənilməsi **D)** Maksimal qəbul dozasının təyini. **3.** Kliniki sınaqlar - **1)** faza - İmmun cavabın öyrənilməsi. **2).** Faza - Preparatın vurulma tezliyi və başqa zərərli yanaşı təsirlərin öyrənilməsi. **4.** Dövlət nəzarəti və vaksinin vurulacaq ölkədə qeydiyyata alınması. **5.** Vaksin istehsalının müntəzəm dövlət yöxlamaları mərhələsi, vaksinin vurulması prosesinə cari dövlət nəzarəti.

***Dünyada pandemiya elan ediləndə***

***(Ümumdünya səhiyyə təşkilatı tərəfindən) pandemiyanın planetdə heç bir elmi kriteriləri yox idi. Pandemiya transnasional kompaniyaların sifarişi ilə , ÜST-na 3 mlrd dollar pul verildikdən sonra , ÜST-nın assambleyası ilə məsləhət edilmədən elan olunmuşdu, halbuki Assambleyanın icazəsi olmadan ÜST-nın öz nizamnaməsinə görə, pandemiya şəxsən ÜST-nın sədrinin iradəsi ilə elan edilə bilməz. Elan edilmiş yalançı pandemiyanın başlanmasından heç bir il də keçməyib, insan vaksini hazirlığına isə ən azı 25 il vaxt gedir, yuxarıda qeyd edilən hazırlıq proseslərinə real halda 30 il vaxt kedir.***

***Vaksin hazırlığında müasir dövrdə 3 növ texnologiyadan istifadə edilir:1.Biotexnologiyalar.2.Nanotexnologiyalar.3.Kompyuter texnologiyaları. Bu texnologiyaların birlikdə tətbiqi nəticəsində vaksin hazırlanmasına ən azı 25 il vaxt gedir. BƏS HAL-HAZIRDA GUYA BİR İL ƏRZİNDƏ(HEÇ BİR İL DƏ KEÇMƏMİŞDİR) HAZIRLANMIŞ, VURULMASI İNSANLAR ÜÇÜN VACİB HESAB EDİLMİŞ "VAKSİN" adını daşıyan maddə həqiqətdə nədir?***

Vəzifəli çinovniklər bütün dünyada televiziya kameraları qarşısında qollarını açaraq "mən vaksin vurdururam" deyə qışqırırlar. Onların vurdurduğu doğrudanmı bir ilə hazırlanmış "vaksin" adını daşıyan o şübhəli maddədir? Bəlkə onlar gözdən pərdə asmaq üçün özlərinə sadəcə fizioloji məhlul, distillə olunmuş su və ya sadəcə vitamin vurdururlar? Axı biz o şprislərdə nə olduğunu bilmirik!

Artıq bütün beynəlxalq ictimaiyyətə məlumdur ki, hər gün dünyanın bütün qitələrində "vaksin" adı ilə insanlara yeridilən şübhəli maddədən yüzlərlə insanlar tələf olur, sağ qalanlarda isə mütləq hər hansı qəfləti ağır xəstəlik inkişaf edir_iflic, ruhi-əsəb pozğunluqları, anafilaktik şok, qəfləti ürək dayanması, qəflətən səbəbsiz olaraq bədən hərarətinin qalxması, və enməməsi, beyin və ağciyər ödemi, hamilə qadınlarda uşaqsalma. Bu siyahını aramsız olaraq uzatmaq olar!

***Koronavirus əleyhinə***

***vaksinin mövcüd olmamasının bir səbəbi də odur ki, koronavirus xəstəlik törətmək qabiliyyətinə malik deyildir.Akademik Filatov yazır:- "Koronavirus o qədər zəifdir ki, hətta laboratoriya şəraitində o ,davamlı yaşaya bilmir, zəif, virulentliyi 0-a bərabər olan virusa qarşı vaksin hazırlamaq mümkün deyildir, koronavirus ən pis halda 3-günlük zökəm törədə bilir, ondan artığa qadir deyildir" Akademik Filatov məhz vaksin hazırlanması ilə məşğul olan məşhur sovet və rus alimidir. Zəif törədicilərə qarşı vaksin hazırlamaq mümkün deyildir. 2020-ci ilin martında Akademik Onişenko koronavirusu "dobrəçok" , yəni xeyirxah virus adlandırmışdır. Bunları oxuyan insanlarda belə bir sual yarana bilər:-"Bəs bu insanları öldürən xəstəlik nədir?"***

**Cavab verirəm:** koronavirusu təsdiq edən müayinə metodu mövcüd deyildir, test müayinəsi koronavirusu təstiq etmir, bu-testləri satmaq üçün ÜST-nin bir oyunudur, artıq Dünya alimləri koronavirusu obyektiv göstərən müayinənin mövcud olmadığını təsdiq etmişlər, gözə görünməyən, laboratoriyada təyin oluna bilməyən virusa qarşı necə vaksin hazırlamaq olar??? Bu, mümkün deyildir! Hal-hazırki xəstəlik isə bütün dünyada qlobal oliqarxat - Dünyəvi Dövlət tərəfindən tətbiq olunan kimyəvi silahdır.




***Bu kimyəvi silahın***

tətbiqindən yaranan,hal-hazırda insanlarda təsadüf olunan, dadbilmə, iybilmə hissinin itməsi, ağır pnevmoniya ilə keçən, bəzən ölümlə nəticələnən ağır xəstəliyin koronavirus adlı günahsız törədici ilə heç bir əlaqəsi yoxdur. İndi insanlarda təsadüf edilən xəstəliyin təsviri hələ SSSR Müdafiə nazirliyinin baş tibb idarəsinin xüsusi metodik vəsaitlərində təsvir edilmişdir. Kimyəvi silahın orqanizmdə törətdiyi dəhşətli fəsadlar uzun illər keçməsinə baxmayaraq dəyişiksiz qalır-sanki indiki faciəvi günlər təsvir edilmişdir. Dünyəvi dib dövləti özünə lazım olan halda kimyəvi silah tətbiq edib bu xəstəliyi çoxaldacaq, lazım olmayanda isə kimyəvi silahın tətbiqini dayandırıb xəstəliyi azaldacaqdır." Vaksin" adını daşıyan maddələrin vurulması isə dünyəvi dövlətə planetdəki insanların sayını 1mlrd-a qədər azaltmaq üçündür.Dünyəvi dövlətin üzvləri bunu açıq etiraf edirlər, onların planetdəki əhalinin sayını azaltmaq üzrə planları ilə tamamilə açıq, heç bir sirr olmadan müxtəlif resurslarda və məqalələrdə tanış olmaq olar. Onların dediklərindən bir neçə sitat:- "Əgər biz vaksinasiyanı keyfiyyətli apara bilsək, Dünya əhalisinin sayını 10 -15% azalda biləcəyik.Planetdə karbon qazı durmadan artır, bununla mübarizə etmək üçün yeganə çıxış yolu insanları bir neçə dəfə dalbadal vaksinləşdirməklə onların sayını 1mlyarda qədər azaltmaqdır".

"Mən öz uşaqlarıma vaksin vurdurmayacağam"-Dünyəvi dövlətin tanınmış bir üzvü ilə müsahibədən- "vaksin qara camaata lazımdır, mən və mənim uşaqlarım isə elitadır" . "Dünya əhalisinin sayının azaldılması prosesi keçmiş sovetlər birliyi ölkələrində daha keyfiyyətli aparılmalıdır.Bu tör-töküntüdən lap tez azad olmaq üçün vaksinasiya 2-3 dəfə son nəticə alınana qədər aparılmalıdır" "Vaksin flakonlarında lazımsız millətləri, fərdləri sterilizasiya edən maddələr olacaqdır, bu universal maddələr yaşı 30-dan yuxarı insanları tədricən öldürəcək, uşaqlar və cavanlar bu maddələrin təsirindən sonsuz olacaqlar-reproduktiv orqanlar atrofiya olunacaqdır, nəsil artımı dayanacaqdır" " Dünya əhalisi azaldıqda dünyəvi dövlətə xidmət edən insanlar-onların ailələrini qoruyan təhlükəsizlik işçiləri , aşpazlar, bərbərlər və başqa qulluqçular vaksinasiya olunmayacaqdır, bu qulluqçu personal "elita qulluqçuları" adlanacaqdır" . Rusiya əhalisinin 75%-i, Avropa əhalisinin 89%-i vaksinasiyanın əleyhinə olduqlarını artıq bildirmişlər. Dünyanın bütün ölkələrində vurulan vaksinlər ancaq bir nöqtədən gəlir, bir məntəqədə hazırlanır-Amerika Birləşmiş Ştatlarının farmasevtik kompaniyaları, bu kompaniyalar istisnasız olaraq Dünyəvi dövlətin nəzarəti altında fəaliyyət göstərir, dünyanın başqa heç bir ölkəsində "vaksin" adlı maddə hazırlanmır, elə buna görədir ki, vurulan maddələrin bütün əlavə təsirləri bütün ölkələrdə eynidir.

***"Vaksinasiya" mütləq mənada***

könüllü xarakter daşımalıdır.Arzu edən bütün insanlar "Vaksinlərdən" bəhrələnmək imkanları olmalıdır. Lakin artıq dünya təcrübəsi göstərir ki, "könüllü" adı ilə başlayan vaksinasiyalar, əslində məcburi olur: vaksinləşməyən insanlar işdən qovulur, bank hesabları bağlanır və.s, nəticədə insana şərt qoyulur:"Ya vaksinləş, yaşa, ya da yenə vaksinləş, amma yaşama." Nəzərə çatdırmaq lazımdır ki, əhali arasında vaksinləşmək təbliğatı aparan həkimlər yalnız müəyyən beynəlxalq, qlobal dairələrə xidmət edən , pula satılmış, vicdanını itirmiş , Hippokrat andını tapdalayıb keçmiş insanlardır. Yenə də qeyd etmək istərdim: normal insan vaksininin hazırlanması üçün 25il-30 il vaxt lazımdır, bu vaksinlərin təhlükəsizliyinin əsas şərtidir.

**Qeyd: Məqalədə dünyanın tanınmış həkim-alimlərinin, politoloqlarının, bioloqlarının məqalələrindən, xüsusilə tarix elmləri doktoru, professor," Dünyəvi Dövlət" problemi üzrə tədqiqatçı Andrey İliç Fursovun "Koronavirus pandemiyası və transnasional kompaniyalar" mövzusunda Moskva Dövlət Universitetindəki çıxışlarından istifadə edilmişdir.**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

***Azərbaycan əsgəri minaya düşərək həlak olub***



**Azərbaycan Ordusunun daha bir əsgəri minaya düşüb.**

**Hərbi qulluqçu Cavadov Rəşad Fərzəli oğlu mina partlayışı nəticəsində Şəhid olub.**

**Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub**

***Şəhid Dəmirov Həsən Turan oğlu***



**12.01.1994-cü ildə Cəlilabad rayonu Muğan kəndində anadan olan Dəmirov Həsən Turan oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimiz ailəli idi.**

**MAXE Həsən Dəmirov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə ”Vətən uğrunda” və ”Laçının azad olunmasına görə” medalları ilə təltif olunub.**

***Şəhidimiz var...***



**Çavuş Quluzadə Elşən Qulu oğlu, 22 yaşlı Elşən Füzuli rayonu 2 Mahmudlu kəndində anadan olmuşdu.**

**11 oktyabr 2020-ci ildə Hadrut istiqamətində gedən döyüşlərdə başından güllə yarası almışdı.**

**27 gün komada qaldıqdan sonra ayılmışdı.**

**Ancaq, edilən bütün müdaxilələrə baxmayaraq bu gün Şəhidlik zirvəsinə ucaldı. Şəhidimizə rəhmət, hər birimizə baş sağlığı diləyirik...**

***Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**03.10.1995-ci ildə Sumqayıt şəhərində anadan olan Abışov Telman Nadir oğlu Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Aydın Əliyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə ”Vətən uğrunda” və ”Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.**

***Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**Cəfərov Rahid Namik oğlu 11.02.2002-ci ildə Cəlilabad rayonu Dələli kəndində anadan olub.**

**Əsgər Rahid Cəfərov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Baş gizir Murad Babayev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə ”Vətən uğrunda” və ”Laçının azad olunmasına görə” medalı ilə təltif edilib.**

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**Babayev Murad Nadir oğlu 31.03.1982-ci ildə Cəlilabad rayonu Sabirabad kəndində anadan olub.**

**Baş gizir Murad Babayev Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 27.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimiz ailəli idi. 13 yaşlı oğlu Samir və 11 yaşlı qızı Zəhra Vətənə əmanət qalıb.**

**Baş gizir Murad Babayev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə ”Vətən uğrunda” və ”Füzulinin azad olunmasına görə” medalı ilə təltif edilib.**

**Allah rəhmət eləsin!**

# Adamda bəxt yaxşı şeydir



**İngiltərədə quşları çəkən fotoqraf gözləmədiyi halda sürprizlə qarşılaşıb. O, quşları izlədiyi zaman qarşısına qədim sandıq çıxıb.**

Beləki 2 min il yaşı olan sandığın içərisindən 1 milyon 144 min dollar dəyərində qızıl çıxıb. Hadisə antik şəhər qalıqlarının olduğu yerdə baş verib. "Axşam tarlada quşları izləyir, şəkillərini çəkirdim. Bir qartalla sağsağanın dalaşmasını izlədim. Ərazidə qəribə bir əşya gördüm. Öncə elə bildim ki, metal bur qurğudur. Yaxınlaşanda gördüm sandıqdır. Qapağını açdım, Kelt dövrünə aid qızılları gördüm" - deyə, fotoqraf bildirib.

# Dünyada hər 17 min insandan biri albinosdur



**Cəmiyyətimizdə gec-gec rast gəlinən, lakin insanların marağına səbəb olan nadir xəstəliklərdən biri albinizmdir. Belə insanlar ağ rəngdə olaraq, ətrafdakıların diqqətini öz üzərlərinə cəmləyirlər. Onlar elmi dildə "albinos" adlanır. Bu sözün latın dilində mənası "ağ" deməkdir. Albinizm xəstəliyinə tutulanlardan çoxu bunu kompleks hesab etsə də, bəziləri insanların reaksiyalarına alışdığını söyləyir. Albinizm doğulandan dəridə dəri rəngini yaradan piqmentin olmamasıdır. Mütəxəssislər Albinizmi xəstəlik hesab etmirlər. Albinizmin səbəbi dəridə melanin yaradan melanositlərin demək olar ki, olmamasıdır.**

Alimlərin araşdırmasına görə, Avropada hər 20.000-dən biri, dünyada isə hər 17.000 insandan biri ağ dərili, ağ saçlı, qırmızı gözlü albinoslardır. Ən çox albinos Nigeriyadadır. Nigeriyada hər 3000 adamdan biri albinosdur. Albinizm irsidir və müalicəsi yoxdur. Onların dünyayabu cür gəlmə səbəblərini heç kim dəqiq izah edə bilmir. Bəzi mülahizələrə görə bu gendə olan mutasiya ilə bağlıdır. Albinosların gözləri zəif və işığa həssas olur. Rəngi isə geyimlərinin rənginə görə, dəyişir. Eyni zamanda onlar dəri xərçənginə meyillidirlər. Sağlamlıq, intelekt və yaşam müddətinə görə, digər insanlardan fərqlənmirlər.

Albinizmə nəinki insanlar, hətta heyvanlar arasında da rast gəlinir.

**Alimlərin araşdırmasına görə 10.000 heyvandan biri albinosdur. Bəzi ölkələrdə albinoslar aşkar ayrıseçkiliyə məruz qalırlar. Tanzaniyada albinosları dini mərasimlərdə öldürürlər. Hesab edirlər ki, onların daxili orqanları bəzi xəstəliklərin aradan qaldırılmasına və cadugərliyə kömək edir.**

**Eminquey**

# "İntihar doğru bir şey deyil"

***Xəbər verdiyimiz kimi, 24 yanvar tarixində Bakının Nərimanov rayonu, Heydər Əliyev küçəsində 30 yaşlı qadın 18-ci mərtəbədən özünü ataraq intihar edib. İntihar nədir? Niyə intihar insanlar tərəfindən çıxış yolu kimi dəyərləndirilir? Adalet.az saytı olaraq sualların cavablarını ekspertlərdən öyrəndik.***

**Konfliktlərin idarə edilməsi üzrə mütəxəssis, Azərbaycan Milli Elmlər Akademiyasının doktorantı Roman Məmmədov:** "Onu deyim ki, intihar bir seçimdir. Özü də yeganə bir seçim. Bir insan intihar edirsə, o deməkdir ki, bütün seçimləri silib və başqa seçəcəyi bir yol yoxdur və intiharı bir çıxış yolu kimi görür. Hər hansı bir problemdən, sıxıntıdan qaçış, yaxud onun həlli yolu kimi intiharı dəyərləndirir. İnsanın seçim yolları çoxaldıla bilsə, başqa seçimlər ona göstərilsə, o zaman intihar ən sonuncu variant olar. Demək ki, bu insanın seçimlərinin qarşısını alan məsələlər var ki, o, artıq intiharı seçib. İntihar, özünəqəsdetmə doğru bir şey deyil. İnsan potensiallı bir varlıqdır. O potensiallarından istifadə etməlidir. İntihar bu potensiallardan məhruma gətirib çıxarır. O nöqteyi-nəzərdən mən intihara doğru seçim kimi baxmıram".

**Respublika Psixiatriya Xəstəxanasının klinik psixoloqu Təhmasib Cavadzadə:** "İntiharı heç bir insan adi halda etmir. Bütün intihar hallarında insan emosional vəziyyətdə olur. Emosional vəziyyətdə isə insan normal düşünə bilmədiyi üçün ən asan yol məsələdən qaçmaqdır. İlk düşünülən fikir problemin həllindən qaçmaqdır. Və ən rahat qaçış yolu intihar seçilir. İntihar edən insanlar psixi cəhətdən zəif olduqları üçün intiharı düşünürlər. Ya da şəxsiyyət cəhətdən impulsiv olurlar.



İmpulsiv insanlar adətən öyrəşirlər ki, əvvəl nəsə etsinlər, sonra düşünsünlər. İntihar da hərəkətdir, bu cür insanlar intihar hərəkəti edirlər və artıq düşünə bilmirlər. Bilirsiniz, intihardan öncə başqa çıxış yolları var. İnsanlar bilməlidir ki, hər hansısa bir məsələni özü həll edə bilmirsə, kiməsə müraciət etməlidir, psixoloqdan professional yardım almalıdır".

**ATU-nun Psixiatriya kafedrasının assistenti Nəsimi Vahabov:** "İntihar çıxış yolu deyil. Bunu bilən çoxdur, amma intiharın çıxış yolu olmadığına hər zaman əməl olunurmu? Bax bu məsələni prioritet kimi saxlamaq lazımdır. Hər bir cəmiyyətdə intiharın azalması, artması tendensiyası var. Buna da təsir edən amillər obyektiv-subyektiv səbəblərdir. Fikrimcə, intiharlar birmənalı şəkildə işıqlandırılmamalıdır. Ona dair xəbərlər manşetdə verilməməlidir. Bəli, xəbər kimi intiharla bağlı nələrəsə yer vermək olar. Amma onu göstərə-göstərə yayımlamağı yolverilməz hal hesab edirəm. İntiharın bu cür təqdimatı onun təbliğinə gətirib çıxarır. KİV-də belə bir problem də var, həmin intihar videolarına fonda musiqi qatır, intiharla bağlı xəbərlərdə bərbəzəkli cümlələrdən istifadə edirlər. Bu cür halları qəbul etmirəm".

**Rövşən Tahir**

# Ölü bədən mağaranın içində yandırılır, tabutları isə mağaranın xaricində asılır



**Çin , İndoneziya və Filippində rast gəlinən qədim bir ənənə - ölmüş insanlarını son mənzilə dünyada çox az adam tərəfindən bilinən bir üsulla uğurlayır. Ölü bədən mağaranın içində yandırılır, tabutları isə mağaranın xaricində asılır. Filippində yerləşən Sagada Dağlıq Bölgəsi , bu üsulu tətbiq edən nadir birliklərdən birinə ev sahibliyi edir. Sagadadakı divar məzarları yaşlılar üçün nəzərdə tutulmuşdur. Gənc ölümlərdə "torpağa basdırılma" tətbiq olunur, çünki gənclərin torpağa basdırılmaqdan ruhi bir fayda əldə edəcəkləri düşünülür. Digər tərəfdən tabutlar şəxsən, ölən kəslər tərəfindən, ölmədən əvvəl özləri üçün hazırlanır. Öldükdən sonra isə ölü, ailənin geydiyi ənənəvi rənglərlə geydirilir ki, gedəcəyi yerdə köhnə ruhlar tərəfindən tanına bilsinlər. Tabutun içindəki cəsədə "döl " mövqeyi vermək isə yenə köhnə ənənələrin parçasıdır.**

Ayrıca ailə üzvləri yeni ölən birinin tabutunu daha yüksəyə asaraq, bədən mayesinin aşağıya axmasını təmin etməyə çalışırlar. Çünki onlara görə bədən mayesinin yaşayanlara bulaşması demək, ölən adamın şans və qabiliyyətlərinin də o kəslərə keçməsi mənasını daşıyır.

**Eminquey**



*Musa Yaqub,*
*Xalq Şairi*

## BUYNUZA QAR YAĞIR

**Nəhəng ağ xəyaldır Babadağ baxır,**
**Buynuza qar yağır**
**Kef içindəyəm.**
**Bağlı cığırlarda izim darıxır,**
**Məxfi sənəd kimi seyf içindəyəm.**

**Ayazı, şaxtası heç sona yetmir,**
**Buynuza qar yağır,**
**Könlümə həm də -**
**Soyuq tənhalıqla heç yola getmir,**
**Gizli bir gizilti gəzir sinəmdə.**

**Buynuza qar yağır uyutsun məni,**
**Yəni dost unudan bivəfalardan**
**Yağır ki, biryolluq soyutsun məni**
**Göylərdən sirr dolu bir aləm yağır,**
**Bu yağan ruhdumu, yoxsa qəm yağır?..**
**Varmı göylərdə də ölən, doğulan,**
**Eh, dünya sirrini harda saxlamır?..**
**Açılmaz düyünüm bir kələfdəyəm,**
**Buynuza qar yağır,**
**yaman kefdəyəm -**
**Barmek tələsməsin,**
**var, işığım var,**
**Hələ işlətməyə qar işığım var.**
**Buynuza qar yağır,**
**hey aram-aram -**
**Mən varam... varam... varam...**



*Akif Əhmədgil*

## Akademik Ramiz Mehdiyevin istinad etdiyi alim Fransis Fukuyama kimdir?

***"Tarixi proseslərin mahiyyəti gözümüzün qabağında dəyişir. Hələ keçən əsrdə bir çox filosoflar və politoloqlar demokratikləşmənin yeni (üçüncü) dalğasının gəlişi (S. Hantinqton) və ya "tarixin sonu" (F.Fukuyama) haqqında danışırdılar.***

***XXI əsrin başlanğıcında bütün elm aləmində anlamağa başladılar ki, heç bir "tarixin sonu" gözlənilmir, "demokratiyanın zəfər yürüşü" perspektivləri barədə danışanlar daha ehtiyatlı oldular, reallığın dəyişməsinə həmişə hamıdan əvvəl reaksiya verən publisistkada isə artıq liberal demokratiyanın böhranı... haqqında danışırlar. XXI əsrdə demokratikləşmə prosesinin genişlənməsi ilə əlaqədar, biz liberal-demokratik dövlətlərlə ənənəvi dövlətlər arasında rəqabətin kəskinləşməsinin şahidiyik."***

***Bu sətirlər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Milli Elmlər Akademiyasının akademiki Ramiz Mehdiyevin "Güclü Azərbaycan dövləti qloballaşma şəraitində milli ideyanın təcəssümü kimi" sərlövhəli məqaləsindən götürülmüşdür. Qeyd etmək lazımdır ki, həmin məqalədə qloballaşma şəraitində dünya nizamının yeni mərhələyə daxil olduğu həlledici məqamda dövlətin rolunun güclənməsi və dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, ən başlıcası müstəqil dövlətin qorunub saxlanması və Azərbaycan dövlətinin dəyişən siyasi və sosial-iqtisadi məkanda milli ideyanı reallaşdırması məsələləri elmi şəkildə geniş araşdırılır.***

***Diqqət çəkən bir məqam isə ondan ibarətdir ki, həmin məqalədə akademik Ramiz Mehdiyev yapon əsilli Amerika politoloqu Fransis Fukuyamanın 2006-cı ildə Moskvada çap olunmuş "Silnoye qosudarstvo" ("Güclü dövlət") kitabına və İsveçrənin "Le Temps" qəzetinə verdiyi müsahibəyə (1 dekabr 2011-ci il) səkkiz dəfə istinad etmiş, qloballaşmanın müasir dövlətə təsirini və onun fəlsəfi, sosial-siyasi və iqtisadı xarakteristikasını vermişdir: "Suveren dövlətlərin legitimliyinin mənbəyi əvvəlki kimi, yenə də milli cəmiyyətlər, beynəlxalq və dövlətlərarası qarşılıqlı təsir, həmçinin müasir demokratiyanın və dünya mədəniyyətinin qəbul edilmiş dəyərləridir. Avropa İttifaqının üzvü olan dövlətləri bürümüş millətçilik meyillərinin yenidən fəallaşması belə düşüncələr üçün kifayət qədər qida verir. Tamamilə aşkardır ki, "dövlətin məhv edilməsi - ayrı-ayrı cəmiyyətlər və dünya birliyi üçün utopiyanın deyil, fəlakətin müqəddiməsidir."***

***Bəs akademikin dönə-dönə sitat gətirdiyi F.Fukuyama kimdir? O, ilk dəfə 1990-91-ci illərdə qələmə aldığı "Tarixin sonu" sərlövhəli, təxminən 45 səhifəlik bir məqalə ilə məşhurlaşmışdır. Sovet imperiyasının süqutu ilə eyni vaxta düşən "tarixin sonu" ideyası heç də dünyanın sonu kimi başa düşülməməlidir. F.Fukuyamanın fikrincə, bəşəriyyət bütün mədəniyyətləri sınaqdan keçirmiş və sonda liberal demokratiya səviyyəsinə yüksəlmişdir. Bəzi politoloqlar alimin bu ideyasının ABŞ-ın dünyaya yeni nizam vermək və onu nəzarəti altına almaq istəyinə uyğun gəldiyini ön plana çəkirlər.***

***F.Fukuyamanın fikirlərini şərh edən akademik R.Mehdiyev daha sonra diqqəti beynəlxalq terrorla mübarizənin vacibliyinə yönəldir: "2001-ci il sentyabrın 11-də radikal islamçıların Nyu-Yorkdakı ticarət mərkəzinə hücumu göstərdi ki, dövlətin zəifliyi böyük strateji problemlərə gətirib çıxarır. Beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının imkanları birlikdə dövlətin qayğılarına vətəndaşların və ölkənin təhlükəsizliyinin təmin olunması ilə bağlı yeni problemlər əlavə edir. F.Fukuyama məhz bunu əsas götürərək yazır: "11 sentyabr hadisələrindən sonra dövlətçiliyin zəiflədilməsi deyil, onun gücləndirilməsi məsələsi dünya siyasətinin əsas vəzifəsinə çevrilib". (Amerika qoşunlarının İraqa, həmçinin NATO-ya daxil olan ölkələrin qoşunlarının Liviyaya müdaxiləsi də F.Fukuyamanın bu fikrini təsdiq edir)".***

***Zənnimizcə, indiki halda F.Fukuyamanın məqalədə adı çəkilən "Güclü dövlət" kitabını bütövlükdə Azərbaycan dilinə tərcümə etmək faydalı olardı.***

# SƏNGƏRDƏ BƏRKİYƏN ZABİT

**Ölkəmizin qəhrəmanlıq səhifəsi olan İkinci Qarabağ savaşının ağrı-acıları Sabirabaddan da yan keçmədi. Müharibənin ilk günündən vətənin harayına hay verən igid oğlanlardan qazi də oldu, şəhid də. Cəbhəyə oğul göndərən hər valideyn ondan geri qalib kimi qayıtmasını arzulayır, necə olursa olsun düşmənə bir addım da irəli atmağa imkan verməməyi tövsiyyə edirdi. Otuz ilə yaxın ayrılıq torpaq sevgisini, vətən məhəbbətini nəinki azaltmamaış, o yerlərə bir dəfə də ayağı dəyməyən yeni nəsil gənclərdə vətənpərvərlik duyğusunu daha da coşdurmuşdu. Doğma el-obalarından zorla qovulan, qətlə yetirilən, olmazın işgəncə və zülmlərə məruz qalan yurddaşlarımızın çəkdikləri onlarda düşmənə nifrət hissini bir az da alovlandırmışdı. Ali Baş Komandanın bircə əmrinə müntəzir olan oğullar bu günü səbirsizliklə gözləmişdilər... Onlardan biri də Məmmədov Anar Elşad oğlu idi...**

Anar 1986-cı il, may ayının 5-də Sabirabad rayonynda dünyaya gəlib, 9-cu sinfədək M.Ə.Sabir adına 1 saylı şəhər tam orta məktəbində təhsil alıb. Sonra təhsilini C.Naxçıvanski adına Hərbi liseydə davam etdirən qəhrəmanımız, ali hərbi biklər almaq üçün H.Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. Məktəbi 2008-ci ildə bitirərək Salyan Kazarmasında yerləşən Təlim-Tədris Mərkəzində leytenant rütbəsində işə başlayır. Elə həmin ildə də sevib seçdiyi Nəzirə xanımla ailə həyatı quraraq, onunla ömür yolunu həmişəlik birləşdirir.

Həmin il Anarın həyatında uğurlu il olur, daim ön cəbhədə xidmət etmək arzusu reallaşmağa başlayır, bu dəfə onu Goranboyda yerləşən "N" saylı hərbi hissəyə göndərirlər. İşə başladığı vaxtdan qüsursuz xidmət göstərən bu gənc hərbçimiz yeni iş yerində də özünün fərqli cəhətləri ilə seçilir. 2009-cu ildə onun xidməti yeri dəyişdirilərək Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissə ilə əvəzlənir. Tərtərin Qəziyan, Çayli, Marquşavan kəndlərində cani-dildən hərbi xidmətini davam etdirən Anar dəfələrlə Vətənə qüsursuz xidmət göstərdiyinə görə mükafatlandırılmışdır. Elə Baş leytenant hərbi rütbəsini də burda işlədiyi vaxt almışdır. Tərtər rayonunda dörd ildən artıq yüksək səviyyədə xidmət göstərən zabitimizi 2013-cü ilin sonlarında özünün ali təhsil aldığı H.Əliyüv adına Ali Hərbi Məktəbə müəllim kimi dəvət edirlər. 2014-2017-ci illərdə gənc tələbələrə hərbin sirlərini öyrətməklə məşğul olan Anar burda da fərqlənərək Qüsursuz xidmətə görə təltif olunmuş və ona "Kapitan" rütbəsi verilmişdir. Amma o, yenə ön cəbhədə olmağa üstünlük verir və cəbhə xəttində yerləşən hərbi hissələrdən birinə qayıtmağı düşünürdü. General Polad Həşimovla birgə qulluq etməsələr də şəxsi tanışlıqları vardı və general onu bir bacarıqlı, savadlı zabit kimi yeksək qiymətləndirirdi. Anarı "Səngərdə böyüyən zabit" adlandırırdı. 2017-ci ilin əvvəllərində Beyləqan rayonu "N" saylı hərbi hissəyə göndəriş alan Anar Məmmədov demək olar ki, arzusuna çatmışdı, o indi düşmənlə üzbəüz, sərhəddə çox yaxın məsafədə xidmət edirdi...

*Ana yurdum, gözəl Vətən,*
*Hər nemətdən əzəl Vətən.*
*Sən ruhumsan, mənsə bədən,*
*Vətən, mənim könlümdəsən.*

Gəzdiyimiz torpağın hər qarışı vətəndir,bunu Anar çox yaxşı bilirdi və harda xidmət etməsindən

**Esse**



asılı olmayaraq zabit şərəfini uca tutur, vətənə sevgisini işi ilə göstərməyə çalışırdı. Növbəti təyinatı 2018-ci ilin əvvəllərində Füzuli rayonuna, ön xəttə yerləşən "N" saylı hərbi hissəyə olur, burda bir il xidmət etdikdən sonra-2019-cu ildə isə yenidən Beyləqana dəyişdirilir. O, buradakı hərbi hissədə ta şəhidlik məqamına çatanadək xidmət edərək "Mayor" rütbəsinə yüksəlmişdir. Beyləqandakı "N" saylı hərbi hissənin əvvəlcə Təchizat rəisi, sonra isə Qərərgah rəisi vəzifəsini yerinə yetirən Anar Məmmədova xüsusi etimad göstərilərək müharibənin qızğın vaxtında Tabor komandiri təyin edilir...

Ailəcanlı idi Anar, ailə qurduğu ilk gündən harda xidmət etmişdisə həyat yoldaşını da özü ilə aparmışdı. Bu illər ərzində də iki qız övladı dünyaya gəlmişdi, artıq üçüncü sinifdə oxuyan böyük qızı Zeynəb məkan dəyişmələrinə adaptasiya oluna bilmədiyindən ailəsini Sabirabadda qoymağa məcbur olmuşdu...

Amma ailəsinə sədaqətli olan gənc zabit hər həftə vaxt tapıb evinə baş çəkir, onlarla olduğu hər anı dəyərləndirirməyə çalışırdı. Müharibənin başlandığı ilk dəqiqədən ön cəbhədə olan zabit Anar Məmmədov oktyabrın əvvəlində (01.10.20) yaxınlıqda mərmi partlayışından kontuziya alaraq Füzulidə yerləşən "Diaqnostik Mərkəz"də təşkil edilən hərbi qospitala yerləşdirilir. Tabeliyində olan əsgərlərini öz balası adlandıran və elə balası kimi sevib qoruyan hərbçimiz həkimlərin təyin etdiyi uzun müddətli müalicə kursunu yarımçıq qoyaraq cəbhəyə qayıdır...

...Deyirlər ərlə arvadın torpağı bir yerdən götürülür. Mən qara qeyd kitabçamıı da götürüb şəhid ailələri ilə görüşə gedəndə necə çətin və məsuliyyətli bir işin qulpundan yapışdığımı bilirdim. Bunu vətən qarşısında, qanları ilə adi torpağı vətən edən şəhidlər önündə ziyalı, yazıçı borcu da adlandırmaq olar. İlk müraciət etdiyim ünvanı da təsadüfən seçməmişdim, bu ailəni mən Birinci Qarabağ müharibəsindən tanıyırdım. Anarın həyat yoldaşı Nəzirə həmin müharibədə şəhid olmuş Heydər Həmidovun qızı idi. Heydərin anası ağbirçək Gülbacı ana, həyat yoldaşı Fəxridə xanım rayonda sayılıb seçilən insanlardan idilər. Kiprikləri ilə od götürən bu gəlin-qaynana baş-başa verib birlikdə yurdunu sevən üç övlad böyütmüş, ev-eşik sahibi etmişdilər. Qızı Nəzirənin də seçiminə hörmətlə yanaşmış və Anarla ailə qurmasına razılıq vermişdilər. Sonrakı illər bu iki ailəni doğmalaşdırmış, iki nəfərin sevgisi elə ailələrə də yansımışdı...

Fəxridə xanım kürəkənindən ağızdolusu danışır, arada kövrəlir və:

-Anara kürəkən deməyə dilim gəlmir, o mənə əsl oğul idi, yoxluğunu da oğul itgisi kimi qarşıladım-deyir. Nəzirə ali təhsilli ingilis dili müəllimidir və M.Ə.Sabir adına 1 saylı şəhər tam orta məktəbində çalışır. O, səmimi söhbət edir, suallarımı cavablandırır, Anarlı günlərindən təbəssümlə söz açan bu xanımın üz-gözündə gəzən qəm kölgələrini hiss edirəm, amma tox tutub özünü... Bu ailənin maraqlı sevgi tarixçəsi var... Nəzirə deyir ki, onu yuxumda görmüşdüm, heç vaxt üzünü görmədiyim bir oğlanı!.. Və bir gün yuxusunun gerçək olmasının da şahidi olur, Anarı təhsil aldığı Universitetin həyətində görəndə çaşıb qalır və sevinclə dönüb dostlarına göstərir onu.. Beləcə sirli yuxu təməli qarşılıqlı sevgi və hörmətdən tökülmüş möhkəm bir ailə ilə möhürlənir...

-Anarla biz dost idik, o, çox savadlı və dünyagörüşlü idi, onunla hər mövzuda söhbət edə bilir, fikir bölüşürdük, bəzən ailə olduğumuz yadımdan çıxırdı, çünki yalnız dostla belə sirdaş olmaq olardı... O ailəsini sevir və qayğısına qalmaqdan zövq alırdı. On iki il sürən bu ailə həyatımın elə bir anı yadıma düşmür ki, az da olsa inciyim ondan. O, qeyrətl Azərbaycan kişisinin siması idi, həmişə məni bir addım özündən uca tutmağa çalışırdı...

... Anar Məmmədov son dəfə oktyabr ayının 16-da ailəsinə baş çəkməyə gəlir, bu zaman o, çox fikirli və kədərli görünürdü. Həyat yoldaşının sualına könülsüz cavab verir, təkid edəndə isə gözlərində yaşların qaynadığını görür... Bu yaşlar da, acılar da Azərbaycanın istəmədən başlatdığı haqq savaşında şəhid olan əsgərlər üçün idi...

-"Bu, çox ağır idi"- deyir Nəzirə xanım, -"mən indiyədək Anarı belə görməmişdim". Həmin gün özü ilə aparmaq üçün müxtəlif sarğı materialları və dərman ləvazimatları alaraq səhəri gün, oktyabrın 17-də cəbhəyə dönür Anar. Sonrakı günlər telefon əlaqəsi saxlaya bilsələr də, 19 oktyabrdan əlaqə tamamilə kəsilir... Sonra isə Anar Məmmədovun Füzulidən başlayaraq Hadrutdan keçən döyüş yolunun 20 oktyabr 2020-ci ildə Daşaltı-Tuğ istiqamətində gedən ağır döyüşlərdə sona çatdığı bəlli olur.

*Bir sevda var, düşüb məndən uzağa,*
*Aramızda yazılmamış qadağa.*
*Tanrı hökmü hər addımda, qarışda,*
*Həsrətini ucuz satmaz bu yollar...*

Axşamüstü başlayan döyüşdə 26 nəfər döyüşçü ilə mühasirəyə düşən zabit əsgərlərin hamısını bir nəfər kimi mühasirədən çıxarmağa nail olur, özü isə düşmənlə döyüşə təkbaşına davam edir. Bu qeyri-bərabər döyüşdən də zabit şərəfini qorumaqla qalib çıxır, bunu özünə saxladığı sonuncu gülləsi ilə sübut edir Anar Məmmədov!...

Onu diri əsir götürməyə çalışan ermənilərin arzusu ürəklərində qalır, onun yalnız nəşini ələ keçirə bilirlər... Xidmət etdiyi hərbi hissə isə onun itkin düşdüyünü düşünürdü...

Bir ay keçəndən sonra Azərbaycan Müdafiə Nazirliyinin əks tərəfə göstərdiyi təzyiqlər və təkidlər nəticəsində məsələ müsbət həllini tapır... O, indi doğmalarının da dəfn olunduğu Cavad kənd qəbristanlığında uyuyur. Mayor Anar Elşad oğlu Məmmədov ölümündən sonra "Vətən Uğrunda" və "Xocavəndin işğaldan azad olunması" medalı ilə təltif olunmuşdur.

Çox illər keçəcək, çox sular axıb durulacaq, amma Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən oğullarımız unudulmayacaq. Onlar özü də, qəhrəmanlıqları da zamandan zamana, vaxtdan vaxta keçərək əfsanələşəcək, dastana dönəcək və həmişə qürur yerimiz olacaqdır...

**Şahnaz Şahin**

# Dardoqqaz kəndinin cəsur oğlu

## Doğma ana həsrəti ilə yaşamış şəhid - Mahmud



...Vətən məhəbbəti ən ülvü hissdir. Vətən bizim varlığımız, qürurumuzdur. Şair demişkən: "Vətəni sevməyən insan olmaz, olsa da, ol şəxs də vicdan olmaz..." Amma onun uğrunda canını qurban verən qəhrəmanlar ölümsüzlüyə qovuşurlar. Bir daha Azərbaycanımızın bütün diyarlarından; kəndlərindən, qəsəbələrindən, şəhərlərindən, rayon mərkəzlərindən olan, vicdanlı, qeyrətli, cəsur, sadə, lakin cəngavər, qorxu bilməz əsgərlərimiz İkinci Vətən Savaşında - Odlar yurdumuzu qəlbən sevdiklərini sübut etdilər. Ana Vətənimizdə yaşayan, biri-biriləri ilə möhkəm münasibətdə olan müxtəlif Talış, Saxur, Avar, Yengiloy, Ləzgi, Tat və digər xalqların vətənpərvər igidləri hətta döyüş meydanında düşmənə bir daha göstərdilər ki, doğma Vətənləri olan Azərbaycanımızı necə qorumağa qadirdirlər. Torpaqlarımızın azadlığı uğrunda ağır döyüşlərdə, mənfur xislətli ermənilərə qarşı gedən mübarizədə şücaət göstərən, xainlərə aman verməyən bu millətlərin igidləri arasında yüzlərlə şəhid, yüzlərlə qazi də oldu. Azərbaycan xalqı yenilməz, mübariz olduğunu şəhidlik zirvəsinə ucalan bütün övladlarının qəhrəmanlığı ilə bir daha təsdiqlədilər.

### *Bu igidlər*

***eyni zamanda xalqda ruh yüksəkliyini qaldırdı, daha sıx birləşməyi, bütöv olmağı tövsiv etdi. Azərbaycanımızın ən ünlü rəmzi olan üçrəngli bayrağı lap uşaqdan böyüyə kimi sevdirdi, lap yaxından tanıtdırdılar. Yeri gəlmişkən, Vətən oğullarımızın, şəhidlərimizin, qazilərimizin, digər hərbiçilərimizin, itkinlərimizin qanı hesabına azad olunmuş Qarabağ bölgələrində tariximizin köklərinin simvolu, olan bayrağımızı böyük fəxarətlə sancdılar.***

Bildirdiyimiz kimi bu Qarabağ Savaşında Zaqatalanın bütün kəndlərindən olduğu kimi Göyəm kənd icra nümayəndəliyinin Dardoqqaz kəndindən də onlarla avar el oğullarımız iştirak edib, şəhid və qazi olublar. Onlar əsil igidlər kimi, ağır döyüşlərdə cəbhənin qaynar nöqtələrində iştirak edərək gələcək nəsillərə nümunə oldular.

Məhz, Sumaylı kənd tam orta məktəbinin pedaqoji kollektivini Vətən Savaşı başlayan gündən məktəblilərə vətənpərvərlik ruhunda müharibədə gənc hərbiçilərimizin göstərikləri şücaətdən qorxu bilmədən torpaqlarımızın azğın düşməndən təmizlənməsini, bu məqamlarda xalqın birliyindən, Ali Baş Komandanın əmrindən sonra Şanlı Ordumuzun 30 ilə yaxın müddət ərzində müharibəyə hazırlaşan, düşmənin üstünə necə hücuma keçməsindən onlayın vasitəsi ilə təbliğ ediblər.

***Dardoqqaz kəndindəki şəhid ailələri ilə görüşəndən əvvəl Sumaylı kənd məktəbinin direktoru təcrübəli pedaqoq Rəsmiyyə Mustafayeva, tədris işləri üzrə dərs hissə müdiri Xuraman Əhmədova və hərbi rəhbər Qəzənfər Yahudovla söhbət zamanı məlum oldu ki, məktəbdə şəhidlərə həsr edilmiş xüsusi güşə yaradılıb, məktəbin pedaqoji və şagird kollektivi tez-tez Dardoqqaz kəndində olan - Vətən Müharibəsində qəhrəmanlıq göstərərək həlak olan - şəhidləri, böyük təcrübəli zabit mayor Abakar Məhəmməd oğlu Hacıyev və cəsur əsgər şəhidimiz Mahmud Əhməd oğlu Xudaverdiyevin məzarını ehtiramla ziyarət edir və onların ailələri ilə əlaqədə olurlar.***

Şəhidlərin keçdiyi ömür yolları və müharibədə göstərdikləri şücaətləri barədə məktəbliləri məlumatlandırılırlar. Əlbəttə ki, bu tədbirlər gələcək nəslin vətənpərvərlik ruhda inkişafında xüsusi rol oynayır. Bu günlər Göyəm, Dardoqqaz, Sumaylı və Çökək - bütün Zaqatalanın böyüklü, kiçikli sakinləri bu Vətən fədailəri fəxr edirlər, onları örnək sayırlar...

O, mənə doğma balam kimi idi...

...Ananın gözlərindən yaş yağış kimi süzülürdü. Gilə-gilə axan yaşı silə-silə bir igidin uşaq yaşlarından başlanan keçməkeşli həyat hekayəsini danışdıqca, biz və ətrafdakılar üzüntülü, təsir edici bu söhbətə çox-çox həyəcanla qulaq asırdıq. Bu hekayəni dinlədikcə bu iradəli, cəsarətli, əsil analıq duyğulara malik qadına "əhsən", "min alqış", "halal olsun" deyə pıçıldayırdım. Yanımda oturan övladın doğma atası xəyallara dalaraq, çox fikirli, qüssəli görünürdü...

..."Bu ailənin yükünü üzərimə götürəndə Mahmud 2 yaş yarımlıq, çox zəif, cılız uşaq idi. Doğma anasını erkən itirdiyindən ana südündən yarımçıq qalmışdı. Tez-tez ağlayır, anasını axtarırdı. Uşağın nələr keçirdiyini çox yaxşı başa düşürdüm. İlk günlərdən bu körpəyə, ondan yaşca böyük qardaşlarına əsil analıq etməyə başladım. Bir müddət keçmiş bu zavallı körpə mənə sığınmağa başladı, onu öz doğma balam kimi əzizlədikcə o, mənim qucağıma sığınmağa başladı. Körpə quş balası kimi dirçəlib, ayaq açdı və ona qayğı göstərdikcə məni doğma anası kimi əzizləməyə, istəməyə başladı. Mənə sıx bağlandı, yuxudan ayılan kimi məni axtarmağa başladı. Çünki, onlara mən ögeylik hiss etdirmədim. Atası Əhmədlə birlikdə onları, ələlxüsusda Mahmudu böyütmək üçün çox əziyyətlərə, çətinliklərə qatlaşdıq.

### *Çəkdiyimiz zəhmət hədər olmadı...*

Sonradan dünyaya gətirdiyim qardaş və bacı ilə də doğmalaşdılar... Mahmudun uşaqlığı yadıma düşəndə bilirsiz canımdan necə sızıltılar keçir. Böyüdü, yeniyetmə gənc oldu, hərbi xidmət yaşına çatdı. Sevindik, fərəhləndik... Lakin!..."

Nailə ana bir anlıq susdu, selləmə göz yaşlarını saxlaya bilmədi, qəhər yenə onu boğdu. Ama, çox çətinliklə olsa da "Axı, mən onu hərbiyə yola salandan onun yolunu səbirsizliklə gözləyirdim. Mən, oğul dağını, belə sağalmaz yaranı heç bir anaya arzulamıram... Mahmudun vaxtsız ölüm xəbərinin məlhəmini mən tapa bilməyəcəyəm, bütöv dünyanı dolaşsam da" dedi - Ana. Atası Əhməd kişi: "Ona halal olsun mənim kiçik yaşlarından anasız qalan övladlarıma əsil analıq etdi. Mahmudu daha çox istəyirdi..." Əlavə etdi.... Atanın da gözləri yaşardı, ancaq özünü itirmədi...

***...Yəqin ki, söhbətin - Ana Vətənimizin fədailərindən biri, ömrünün lap gənc yaşlarında o, uca zirvəni - şəhidlik zirvəsini fəth edənlərdən biri haqqında getdiyini hiss etdiniz...***

***Həyatdan tam doymamış, doğmmaları ilə doyunca yaşamamış, dostları ilə yetərincə zarafatlaşmamış, qəlbində gəzdirdiyi sevgini o, qıza bildirməmiş - şəhid oldu - Mahmud balamız...***

Zaqatala rayonu, Göyəm İcra Nümayəndəliyinin Dardoqqaz kəndində 19 iyul 2001 -ci il tarixdə dünyaya göz açan Mahmud Əhməd oğlu Xudaverdiyev torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərin birində qəhrəmanlıqla həlak oldu. Ömrünün 19 yaşında milyonların qəlbində, həmişə parıldayan bir ulduz yandırdı, bizim igidimiz - Mahmud. Vətən Savaşında xain, faşist, qan içən - erməni dığalarının qənimlərindən biri Ali Baş Komandanın əmrindən sonra ilk gündən xüsusi əhəmiyyətli mövqelərimizdə döyüşə başladı - Mahmud Xudaverdiyev.

O, düşməninin ardıcıl hücumlarının dəf edilməsində döyüşçü yoldaşlarına sipər oldu, cəsurluq etdi, ancaq irəli getdi...

Mahmudun atası söhbətin davamında bildirdi ki, onun birinci həyat yoldaşı 2004 -cü ildə gənc yaşlarında dünyasını dəyişib. Onun birinci evlilikdən 3, ikinci evlilikdən 2 övladı vardı. 4 oğlan, 1 qız. Əhməd kişi həyat yoldaşı Nailə İslam qızı Qurbanova ilə birlikdə övladlarını çox çətinliklərlə olsa da, psixoloji sarsıntılar keçirsələrdə çox tərbiyəli və sağlam, işgüzar mühütdə böyüdüb... Bu ailənin böyük övladı Elmirdir. O, ailəlidir, hal-hazırda Zaqatala rayon Yaşıllaşdırma İdarəsində çalışır. Xudaverdiyevlər ailəsinin ikinci oğlu Eldənizdir. Mahaçqala şəhərində tikintidə çalışır. Bu sadə, zəhmətsevər ailənin hələ də Mahmudun yolunu səbirsizliklə gözləyən, gözləri yolda qalan sevimli qardaşı Elxanın 9 və bacısı Nərminin 7 yaşı var. Anası Nailə deyir ki, Mahmudun ailədə çox böyük hörməti var idi, xoş rəftarı, mehribançılığı və səmimiliyi, zəhmətsevərliyi ilə seçilərdi. Əhməd Xudaverdiyev isə söylədi ki, oğlu Mahmud 2018 -ci ildə Sumaylı kənd tam orta məktəbini bitirib. Bir müddət təsərrüfatda çalışan Mahmud 2019 -cu ilin iyun ayında həqiqi hərbi xidmətə gedib. Əvvəlcə, Tərtər rayonunun Əlibəyli kəndində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Həmin vaxt cəbhənin ən təhlükəli düşmənlərimizin tez-tez atəşə tutduğu mövqelərimizi qoruyan cəsur el oğlumuz, hərbi xidmətini nümunəvi keçirməklə yanaşı, komandirlərinin tapşırıqlarını layiqincə yerinə yetirir və keçirilən hərbi təlimlərdə seçilərdi. Bu zamanlar, yəni 2016 -cı ilin aprel döyüşlərindən sonra xain qonşular ardıcıl təxribatlar törədirdilər. Düşmənin işğal etdiyi ərazilərdən müharibə qoxusu da gəlirdi. Əhməd Xudaverdiyev deyir ki, hərbi and içmədən sonra oğlu Mahmud düşmənin daim hədəfə tutduğu "Ballı qaya"dakı postlarda hərbi xidmətini davam etdirib.

### *Tərtər-Goranboy rayonlarının,*

***Fərruz-Murovdağ dağ silsiləsində yürləşən yüksək əhəmiyyətli bu mövqe son döyüşlərdəki mənfur düşmənin "göz dağı" olub. Məhz, Milli Ordumuzun hərbiçiləri bu mövqeləri qorumaq və ətraf ərazilərimizi düşməndən təmizləmək üçün erməni hərbiçilərlə daima ölüm-dirim mübarizə aparıblar.***

Cəsur oğlumuzun anası Nailə xanım qeyd etdi ki, hərbi and içmə mərasimin günü, 14 avqust 2019 -cu il tarixində ailə üzvüləri ilə birlikdə Mahmudla görüşüblər. "Bilirsiniz, həmin gün o, bizim gəlişimizə necə sevinmişdi, elə bil ona dünyaları bağışlamışdılar. Oğlumuzla hərbi hissədə görüşümüz Mahmuda ruh yüksəkliyi verməklə yanaşı, həmin görüşümüz həyatımızda xoş xatirələrə çevrildi. Daha sonra ailə üzvəri və yaxınları, əziz balamızla 4 dəfə görüşüblər. Nə yaxşı ki, biz onu gözü yolda qoymadıq. Amma Mahmud balamız bizi gözü yolda qoydu, hər birimizə xoş xatirələrlə yanaşı, acı xatirələr yaşatdı... göz yaşlarını bəxş etdi - deyə şəhid anası əlavə etdi.

### *Torpaqlarımızın azadlığı uğrunda*

***canından keçmiş Vətən övladlarına dərin ehtiramın nəticə etibarı isə Azərbaycan cəmiyyətində vətənpərvərlik ruhunun daha da güclənməsinə yol açdı. Ona görədir ki, böyük əksəriyyəti atəşkəs dövründə doğulub-böyüyən, 90 -cı illərin əvvəlləridə baş verənlərin şahidi olmayan və 44 günlük müharibədə Qələbəmizi təmin edən gənc nəsil yüksə vətənpərvərlik hisslərinə malikdir. Bu hissləri isə ən çox, sadə, zəhmətkeş, çətinliklə üzləşən, ailədə nümunəvi tərbiyə almış, haram çörək yeməyən gənclərə aid etmək olar. Bu günlər adı qəhrəmanlar sırasında çəkilən Mahmud Əhməd oğlu Xudaverdiyev kimi...***

Mahmud Xudaverdiyev hərbi ximdəti dövründə hərbi təlimlərdə fəal iştirak etmiş, hərbi texnikaya mükəmməl yiyələmiş, hərbi taktikanı, fəndləri hərbi qaydalaya uyğun öyrənmişdi. Atası söhbət zamanı bildirdi ki, "Mahmud tez-tez telefon əlaqəsi saxlayır, hərbi xidmətinin yaxşı getdiyini bildirərdi. Onun sonuncu zəngi 13 oktyabr 2020 -ci il tarixdə olub, dedi ki, "ata siz narahat olmayın, mən Vətənimizin keşiyindəyəm, borcum torpaqlarımızı faşist ermənilərdən azad etmək, onları doğma yurdlarımızdan qovub çıxartmaqdır, çünki bu bizim həm də vətəndaşlıq borcumuzdur, narahat olmayın, tezliklə görüşəcəyik, Qələbə sədası ilə..."-dedi oğlum. Halbu ki, cəbhədə həmin vaxt qızğın döyüşlər gedir, oğlum Tərtər - Goranboy - Xocavənd- Hadrut istiqamətində döyüşürdü, xain düşmənə qarşı" deyən şəhid atası vurğuladı ki, Mahmudun son döyüşü 14 oktyabr 2020 -ci il tarixində olub.

Mahmud Xudaverdiyev Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə... Əks hücum zamanı düşmən tərəfindən atıldığı mərmi qəlpələrindən ağır yaralanıb. Döyüş meydanında çoxlu qan itirməsi nəticəsində həlak olub. Qəhrəman, qorxmaz - Zaqatalanın fədakar oğlu müharibə başlayan gündən ön cəbhədə təcrübəli atıcı kimi döyüşlərə başlayıb. O, döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsini, texnikasını məhv etmişdi. Mahmud gənc olmasına baxmyaraq Vətənimizin azadlığı uğrunda, azğın düşmənə qarşı, mərdi-mərdanə vuruşaraq hünərvər kimi şəhadətə qovuşub. Doğma anasını körpəlikdən itirmiş, onun həsrəti ilə yaşamış, halal çörəklə böyümüş, tərbiyə almış - ailənin ən sevimli övladı olmuş - Mahmud - Azərbaycanı yeni şanlı səhifəsinə qəhrəman tək ad qoydu. Zəfər qazanılmasında xüsusi xidmətləri, cəsur döyüşçü kimi azadlığı uğrunda həlak olan tarixi yurdların əzəli qəhrəmanı oldu... Dünyaya göz açdığın Zaqatala rayonunun Dardoqqaz kəndinə, and içdiyi üç rəngli bayrağımıza bükülü olsa da üzü ağ qayıtdı. Elin çiyinlərində 16 oktyabr 2020 -ci il tarixində çox möhtəşəmliklə son mənzilə yola salındı...

Bizimlə söhbət zamanı hönkür-hönkür ağlayan, Mahmuda əsil ana qayğısı göstərmiş Nailə xanım, atası - Əhməd, qardaşları və bacısı Nərmin, ou sevənlər şəhid el oğlumuzla fəxr edirlər, edəcəklər də... Çünki, o, hamımızın uğrunda əbədiyyətə qovuşdu... Ruhun şad olsun - Mahmud!

**Şəhid - Mahmud Əhməd oğlu Xudaverdiyev Prezidentin sərəncamı ilə (ölümündən sonra) "Vətən uğrunda medal"ı ilə təltif olunub.**

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

№ 9 (2190) 26 yanvar 2021-ci il



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# İLHAM ƏLİYEV: "AĞDAM MÜASİR ARXİTEKTURALI ŞƏHƏR OLARAQ YENİDƏN QURULACAQ"

**Min ilər ərzində yaşayış məskəni olmuş Ağdam inzibati ərazi kimi rayon statusunu 1930-cu ildə alıb. Rayonun ərazisi 1150 kvadrat kilometr olub. Sovetlər dövrünün ortalarında aparılan arxeoloji tədqiqat işləri buranın qədim insanların yaşayış məskənlərindən olduğunu sübut edir. Üçoğlantəpə adlanan ərazidə aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, qədim insanlar bu torpaqlarda eramızdan əvvəl IV-VI minilliklərdə (Eneolit dövrü) məskunlaşıblar. Ağdamın VI əsrə aid Kəngərli Məbədi, VI-VIII əsrlərə aid Şahbulaq Məbədi, XV əsrə aid Maqsudlu Məbədi, XVIII əsrə aid Qiyaslı kənd, Papravənd kənd Məscidləri, 1868-ci ildə tikilmiş Ağdam şəhər Məscidi və s. kimi tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar müxtəlif tarixi dövrləri əks etdirən nadir nümunələrdən olmuşdur.**



Bundan başqa 1314-cü ilə aid Xaçındərbətli Qutlu Musa türbəsi, XVIII əsrə aid Ağdam şəhər türbəsi, Üçoğlan kəndində EşqAbdal türbəsi və s. kimi onlarla ziyarətgahları, XVIII əsrdə tikilmiş Pənahəli xan imarəti, Şahbulaq imarəti və s. kimi tarixi memarlıq abidələri olmuşdur. 1983-cü ildə yaradılan Çörək muzeyi dünyada ikinci, o vaxtki SSRİ-də isə birinci və yeganə çörək muzeyi idi.

Bu muzeydə toplanan eksponatlar arasında əsrlərlə yaşı olan daşlaşmış qədim tarixi çörək nümunələri, nadir dənli bitki növləri, taxılçılığın inkişafına aid çoxsaylı qiymətli kitablar, əlyazmalar, qədim əkinçilik alətləri, əl dəyirmanı və başqa alətlər mövcud olub. Muzeyin yaranma tarixi də maraqlı olub. Şəhərin mərkəzində köhnə, uçulub dağılmış bir dəyirman var idi. 2-ci dünya müharibəsi zamanı bu dəyirman Ağdamın yeganə çörək mənbəyinə çevrildiyi üçün ora müqəddəs bir məkan kimi baxılırdı. Uçulub dağılmasına baxmayaraq ona əl vurmurdular.

Sonradan bu köhnə dəyirmanı bərpa etmək, onu çörək muzeyinə çevirmək ideyası həyata keçirildi və bərpa edilərək Çörək muzeyi yaradıldı. Müharibənin qızğın vaxtlarında 1992-ci ildə düşmənin atdığı qrad mərmisi bu muzeyin bi tərəfini dağıtdı. Eksponatların bir çoxu məhv oldu və ya yararsız vəziyyətə düşdü.

Ağdamın simvolu sayılan, əhalinin ən çox toplaşdığı məkanlardan biri, məşhur Çay Evi Çin arxitekturası üslubunda 1986-cl ildə tikilmişdi. Təəssüf ki, işğaldan sonra bu yaraşıqlı tikili də erməni quldurları tərəfindən məhv edilmişdi.

İşğal edilmiş rayonlar arasında əhalinin sayına görə Ağdam ən böyük rayon idi. İşğaldan əvvəl əhalinin sayı 158 minə yaxın olub. Hazırda Ağdam rayonunun əhalisinin sayı 204 min nəfərdir.

77 faizdən çoxu, bir şəhər və 80 kəndi ermənilər tərəfindən işğal olunmuşdu. İşğal nəticəsində rayona vurulan zərər təxminən 14 milyard dollar məbləğində hesablanır. Lakin bu rəqəmlər yəqin ki, cənab prezidentin tapşırığı ilə yenidən aparılan qiymətləndirilmələrdən sonra daha çox olacaq. Ağdam ağır yeyinti və yüngül sənaye müəssisələrinə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayon idi.



Rayonda dəzgah avadanlıqları, aerokosmik və rabitə çihazları, metiz-furnitur zavodları, traktor və avtomobil təmiri servis mərkəzləri, asfalt, Konserv Yağ-Pendir, Barama toxumu, Şərab və Mexanikləşdirilmiş çörək zavodları, Xalça fabriki, taxıl məhsulları, Tikinti materialları, ət və Məişət xidməti kombinatları, iki Dəmir yol və Aeroport vağzalları fəaliyyət göstərirdi.

Ağdam rayonu cənab prezident İlham Əliyevin də dediyi kimi yenidən bərpa edilərək Axərbaycanın ən gözəl şəhərləri sırasında olacaq. Ağdam üçün yeni dövr başlayır. Ağdam rayonu yenidən Azərbaycanın ən zəngin, mədəniyyətin, aqrar sənayenin, kənd təsərrüfatının inkişaf etdiyi rayonlarından birinə çevriləcək. Cənab prezidentin vurğuladığı kimi, şəhərin bərpası üçün genplan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar inşa ediləcək. Bunun üçün lazım olan bütün işlər həyata keçiriləcək.

Ötən əsrin 90-cı illərində erməni quldurları tərəfindən 77 faizdən çox ərazisi işğal olunmuş Ağdamın böyük tarixi əhəmiyyət daşıyan tarixi abidələrinin çoxu dağıdılmış və məhv edilmişdir.

Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz itirilmiş torpaqlarımızı 44 gün ərzində işğaldan azad etməyə müvəffəq oldu. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edildi. İşğaldan azad olunmuş tarixi torpaqlarımızla yanaşı, Ağdam rayonu da tam olaraq işğaldan azad edildi. Lakin erməni barbarları tarixi abidələrimizlə bərabər yaşayış məskənlərimizi də tamamilə dağıdaraq xarabalığa çevirmişdi. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizi ziyarət edərkən, dağıdılmış yaşayış məskənlərimizin yenidən, daha müasir şəhərsalma qaydalarına uyğun olaraq tikiləcəyini, dağıdılmış və məhv edilmiş tarixi abidələrimizin bərpa ediləcəyini bildirdi.

**Ümid edirik ki, cənab prezidentin göstərişi ilə yeni salınacaq Ağdam şəhərinin quruluşu saxlanılmaqla bu işlər daha müasir qaydada aparılacaq. 30 hektar ərazidə yerləşən möhtəşəm şəhər Mərkəzi parkı (şəhər bulvarı) və 10-dan çox müxtəlif parklar, Dövlət Dram Teatrı, Üzümçülər Evi, Mədəniyyət Evi, Musiqi Texnikumu və digərləri müasir üslubda tikiləcək və Ağdam yenidən qurulacaq. Ağdam şəhər mərkəzinin geniş küçə və prospektləri yenidən qurulacaq. Müasir çoxmərtəbəli yaşayış və inzibati binaları yenidən tikilərək bərpa ediləcək, bir vaxtlar on minlərlə insanların çalışdığı iri zavodlar, kombinatlar, fabriklər yenidən qurulacaq və yəqin ki, yeniləri də tikiləcək. Bir sözlə, 27 illik həsrətdən sonra boş qalmış bu şəhər yenidən insan nəfəsi ilə canlanacaq.**

***Rüstəm Hacıyev***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# SAZ HAVASI

**Bir neçə il əvvəl Borçalıya (Marneuli) sənəd dalınca getmişdim. Dostum Mamed məni Borçalı ədəbərkanı ilə qonaq elədi və işlərimizi bitirəndən sonra mənə dedi ki, gedək yeyib-içib kef edək.**

Dedim:

**- Sən bilirsən ki, mən içmirəm və kef etmək deyəndə də qadınları nəzərdə tutursansa, bunu da bilirsən ki, mənim elə şeylərlə aram yoxdu. Ondansa halal ətdən bişirilən xəngəl verilən bir yer varsa ora gedək.**

And-aman elədi ki, nə içki olacaq, nə də sənin fikirləşdiyin qadınlar. Sadəcə qəşəng kabab yeyib gürcü limonadı içərik. Gerisi də sürpriz.

O qədər and içdi ki, bununla getməyə razı oldum, amma mən bunu tanıyıram axı. Bilirəm sürpriz dediyi adi şey ola bilməz. Uzun sözün qısası, gəlib şəhərdən kənarda meşəlik yerdə bir restorana çatdıq. İçəri girəndə gördüm erməni mahnısı çalır "muzikantlar".

Mamed qabaqdan girdi. Bunu görən kimi musiqiçilər mahnını dayandırdı və "obyekt" sahibi qabağımıza qaçdı.

**- Ara, Mamed can, dobrı pojalovat. Çoxdandı niyə gəlmirsən?**

Köpəy oğlunun ermənisi bizim dili bizdən yaxşı danışırdı desəm, mübaliğə etmiş olmaram. Mamed özündən razı şəkildə dedi:

**- Bütün müştəriləri boşalt. Restoranı bağlatdırıram. Azərbaycandan qonağım gəlib.**

Azərbaycan deyəndə bir az yüksək səslə dedi və yeyib-içənlərin hamısı bizə baxdı.

**- Ara, Mamed qardaş, mən necə qovum axı klientləri? Sizə kabineti verim.**

Mamed ayağını yerə dirədi ki, ya bu dəqiqə buranı boşalt, ya da mən boşaldacam. Gördülər ki, yox e Mamed Nuh deyir, Peyğəmbər demir. Yaxındakı masadakı cavanlar özləri durub getdi. O biri masadakıları da "obyekt" sahibi birtəhər razı salıb yola saldı. Mamedin istəyi ilə restoranın tam ortasına uzun bir masa düzəldib əllərinə nə keçdisə düzdülər ortalığa.

Mamed dedi ki, bir dənə də boş masa gətirib qoyun yanımıza. Mən baş verənləri təəccüblə izləməklə yanaşı eyni zamanda nə baş verdiyini anlamağa çalışırdım.

Mamedin istəyi ilə adam göndərdilər "Qəssab Əli"dən kabab üçün halal ət alıb gətirsinlər.

Bir saata yaxın vaxt keçməsinə rəğmən biz ayaqda durub dəm-dəsgahın hazır olmasını gözləyirdik. Nəhayət, buyur etdilər və Mamed keçib upuzun masanın başındakı skamyanı çəkərək mənə "əyləş" dedi. Özü də keçib masanın o biri başında oturdu. Aramızda hardasa 4-5 metr məsafə var idi və bu məsafə "quş südü-can dərmanı" ilə dolu idi. Mamed mənə dedi:

**- Cibində xırda Azərbaycan manatı var?**

Mən də ciblərimi qurdalayıb bir ədəd 5 manatlıq və 3 ədəd bir manatlıq tapdım. Əllilik və yüzlükləri Mamed cibimə geri qoymağımı istədiyinə görə 8 manatı ona verdim.

Manatın "xod gedən" vaxtları idi. Mamed "muzikant"lardan birini çağırıb 1 manat verdi və "Bakılı balasıyam" mahnısını "zakaz" elədi. Eyni zamanda çağırdığı adamın qulağına pıçıltı ilə nəsə dedi. Məsafə çox uzaq olduğu üçün bunu eşidə bilmədim.

Mahnı başlar başlamaz iki qız yaxınlaşıb çıxdılar yanımızdakı boş masanın üstünə və başladılar "Bakılı balası"na oynamağa.

Yüksək səslə Mamedə səsləndim:

**- Mən sənə dedim axı qadın-qız olmasın...**

Mamed gülümsəyərək nəsə desə də yenə eşitmədim. Kabablar gəlməyə başladı.

Mahnılarımız ard-arda "muzikant"ların ifasında bərbad günə qoyulduqca qızların oynaması məndə qəribə hislər yaradırdı.



Birdən gözüm çalğıçıların arxasındakı saza sataşdı. Dalıb getdim uzaqlara. Heç vaxt görmədiyim Kəlbəcəri, Şuşanı-Qarabağı dolaşdım xəyalımda.

Əsir düşən qadınlarımızı düşündüm. Ermənilərin masasında məcburən rəqs etdirildikləri gəldi gözümün qabağına və özümdən asılı olmayaraq gözlərimdən yaş axmağa başladı.

Özümə gələndə onu gördüm ki, erməni qızının biri mənə salfet uzadır.

Əlimi masaya vurub mahnının dayandırılmasını tələb etdim və durub Mamedin "cinahına" keçdim.

Əlimi boynuna salıb dedim:

**- Mamed, mənim gözəl qardaşım, niyə belə edirsən axı?**

Dedi:

**- Ayə, ermənidilər, pulumu verib məzələnerəm dana.**

Dedim:

**- Qardaş, erməni də olsalar qadındılar. Biz onlar kimi deyilik axı. İndi sən pulunu verib onlarla əylənirsən. Bəs onların bizim əsirlərlə hansı tərzdə "əyləndiyini" düşünürsən heç?**

Mamed susub doluxsundu, amma yenə dedi:

**-Ayə, bizim başımıza nə gəler ürəyi yumşaqlığımızdan gəler dana. Buların hamısının var yoxunu...**

Bu sözləri yüksək səslə dedi, amma restoranda olan bir başı papaqlı dinib nəsə demədi.

Yaxınlaşıb sazı götürdüm. Bərbad halda olan tellərini birtəhər kökləyib sinəmə basdım. "Ruhani" sədası altında ağzımı mikrofona yaxın tutaraq dedim:

**- Mamed, biz bunlar kimi deyilik. Biz Azərbaycanlıyıq, biz müsəlmanıq. Təbii ki, düşmənimizdilər. Versələr qanlarını içərəm, amma dinc qadınların yox. Erməni də olsa, əli silahsız qadındı. Əks təqdirdə bizim onlardan nə fərqimiz olar ki...**

"Ruhani"ylə qoşalaşaraq yenə xəyalımla uçmağa başladım. Qılınc çaldım, at çapdım, cəng elədim. Düşmənləri bir-bir qanına qəltan elədim. Hayıfımı çıxdım, amma qadınlara toxunmadım.

Bir onda özümə gəldim ki, mizrabı pas tutmuş simlərə elə vururammış ki, cəmi ikicə teli qalıb. Qırılan tellər əlimi dəlik-deşik edib. Və gözlərimi açanda onu gördüm ki, "muzikantlar", qızlar, restoran sahibi hönkür-hönkür ağlayır. Mamed isə donub qalıb. Bıçaq vursan qanı çıxmaz.

O boyda naz-nemətdən bir tikə belə keçmədi boğazımızdan və "gedək" dedim.

Mamed restoran sahibini çağırıb "şotu" istədi. Restoran sahibi olan erməni məni qucaqlayaraq hönkür-hönkür ağlayaraq dedi:

**- Bağışla bizi...**

**Nə qədər etdiksə "şotu" almadılar və çıxanda o sazı mənə hədiyyə etdilər...**

**Rauf Qərib Alagöz**

**Sürix hava limanında yerə enməyə hazırlaşan təyyarənin sərnişinləri qorxulu anlar yaşayıblar. Belə ki, təyyarə səmada uçan naməlum obyekt ilə qarşılaşıb.**

Sərnişinlərdən biri bu dəhşətli anları videoya çəkib.



ilə bağlı qaraşdırma aparır. Beynəlxalq Kosmik Stansiyanın kameraları "elf" və "mavi cet"ləri çəkə bilib.

"Mavi cet " fırtına buludlarından yuxarıya doğru atılan boru-konus şəklində göy rəngə çalan ildırımdır. Uzunluğu 40-70 kilometrə qədər olur.

"Elf"lər isə buludların səthində nəhəng konus formalı işıq saçan ildırımdır.

Onların diametri təxminən dörd yüz kilometrdir. Bəzi alimlərin fikrincə, belə ildırım atmosferdəki istixana qazlarının miqdarına təsir edə bilər.

Qeyd edək ki, bu hadisələri Yer səthindən müşahidə etmək mümkün deyil.

# Ayda dinozavr izi, təyyarə ilə uçan boşqabın toqquşmaq təhlükəsi, "Elf" ildırımı

Kadrlarda Sinqapurdan gələn hava gəmisinin enişə hazırlaşdığı görünür. Təyyarənin şassiləri artıq açılıb. Birdən təyyarə yana əyilməyə başlayır və uçan naməlum obyekt onun bir metrliyindən ötüb keçir.

Sonrada məlum olub ki, təyyarənin əyilməsi məhz bu obyektlə toqquşmadan yayınmaq məqsədi daşıyıb.

Pilotlar uzaqdan yaxınlaşan naməlum obyekti görərək, son anda onunla toqquşmadan yayına və sərnişinlərin həyatını xilas edə biliblər.




Təyyarə sağ-salamat yerə enib. Hazırda müvafiq qurumlar məsələ



Planetimizin yeganə peyki olan Aya ilk ayaq basan insan 1967-ci ildə NASA astronavtı Nil Armstronq olaraq bilinir.

Populyar elmi yazıçı Piter Brannen dinozavrların NASA-dan əvvəl Aya çatmış ola bilmək ehtimalının olduğunu deyib.

Onun sözlərinə görə, dinozavrlar Yer peykinə 66 milyon il əvvəl çatmış ola bilər.

**Brannenin iddiasına görə, 66 milyon il əvvəl bir meteoritin səbəb olduğu dağıntılar və dinozavr parçaları kosmosa atılan torpağa qarışaraq Aya gedib.**

**Eminquey**

# Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı Almaniyada çap olunub

**Xalq yazıçısı Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı Almaniyada çap olunub. Bu barədə kitabın redaktoru, Almaniyada yaşayan həmyerlimiz, yazıçı-araşdırmaçı Orhan Aras məlumat verib. O, bildirib ki, roman türkoloq Herman Kielin tərcüməsində işıq üzü görüb.**

"Amazon", "Booklooker", "Buchkatalog.de", "Thalia.de" kimi böyük kitab satış saytlarında "Das Unvollstandige manuskript" adı ilə alman oxucularına təqdim olunan roman "Epubli" nəşriyyatında işıq üzü görüb.

Kitabın rəssamı Soltan Soltanlıdır. Nəşriyyat "Yarımçıq əlyazma" romanını "Alman oxucu bu romanda Şərqin özünəməxsus rəngini görəcək və fərqli bir tarixi dövrünə şahidlik edəcək" təqdimatı ilə oxucuların ixtiyarına verib.

Qeyd edək ki, 2020-ci ildə yazıçının "Sehrbazlar dərəsi" romanı da Almaniyada yayımlanıb. Kamal Abdullanın ədəbi-bədii irsində vacib yer tutan roman yaradıcılığı "Yarımçıq əlyazma" ilə başlayıb.




Müasir Azərbaycan ədəbiyyatında hadisə sayılan, ədəbiyyatşünas, mədəniyyətşünas və tənqidçilərin bədii-estetik səviyyəsinə, ədəbi siqlətinə görə yüksək nümunə kimi dəyərləndirdiyi bu əsər Bakıda ilk dəfə 2004-cü ildə çap olunub.

"Yarımçıq əlyazma"nın ədəbi taleyi təkcə Azərbaycanla bağlı olmayıb.

Çap olunduğu ölkələrin sayına görə dünya ədəbiyyatının həqiqi faktına çevrilən roman - Fransa, Rusiya, Türkiyə, Braziliya, Polşa, Misir, Amerika, Qazaxıstan, Avstriya, Qırğızıstan, İtaliya, Gürcüstan, Monteneqro və Yaponiyada çap olunub.

Azərbaycanda tənqidçilərin müxtəlif müzakirə və mübahisələrinə səbəb olan, ətrafında çeşidli ədəbi qalmaqallar yaranan bu əsər 2007-ci ildə "525-ci qəzet"in "İlin romanı", Nəsimi Milli Ədəbiyyat Müsabiqəsinin "Son 10 ilin ədəbi əsəri", 2007-ci ildə "Humay" mükafatlarına layiq görülüb. 21 sentyabr 2015-ci ildə "Yarımçıq əlyazma" İtaliyanın ən böyük fondlarından biri Rikardo Tanaturri Fondunun təsis etdiyi "Scanno" mükafatının ("Skanoprize") ədəbiyyat üzrə xüsusi prizini ölkəmizə gətirib.

**Xüsusilə qeyd etmək lazımdır ki, bu əsər çap olunduğu xarici ölkələrdə uğurlu nəşr həyatı yaşayaraq müxtəlif illərdə Fransada (2003, 2005), Türkiyədə (2006, 2014), Rusiyada (2006, 2013), İtaliyada (2014, 2015) təkrar çap edilib.**

# "Vətənsiz olmağı heçnə unutdura bilməz"

***"Kifayət qədər gözəl qarmon ifaçıları var. Onları sevə-sevə dinləyirəm. Zakir Mirzəyev, Aftandil İsrafilov, Ənvər Sadıqov, Xanlar Cəfərov və bir çox gözəl ifaçılarımız. Çoxsaylı ifaçılar var ki, hamısının adını qeyd edə bilmirəm. Bu insanlar Azərbaycan musiqisinə rəng qatmış, töhvə vermiş ustad sənətkarlardır". "Ədalət" qəzetinin qonağı qarmon ifaçısı Fuad Göyüşovdur.***

**-İlk olaraq istərdim ki, özünüz haqqında bir qədər geniş məlumat verəsiniz...**

-1987-ci ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olmuşam. Məlum Qarabağ hadisələrindən sonra Beyləqan rayonunda məskunlaşdıq. İlk musiqi təhsilimi burada almışam. 2005-ci ildə Asəf Zeynallı adına Musiqi Kollecinə daxil olmuşam. Orada mənə Respublikamızın Əmakdar artisti Zakir Mirzəyev dərs deyib, muğamlarımızın sirrlərini öyrədib. Zakir müəllim mənim üçün böyük bir məktəb olub. Hazırda Azərbaycan Milli Konservatoriyasında 1-ci kursda oxuyuram. Müəllimim Respublikamızın Xalq Artisti Ənvər Sadıqovdur. Ənvər müəllimdən dərs almaq mənimçün əvəzedilməzdir. Uşaqlıqdan sevə-sevə dinlədiyim bir dahidir Ənvər müəllim! Onun ifası, səhnə mədəniyyəti, sadəliyi məni sənətə daha çox bağlayır. Nə bilim, sözlərlə ifadə edə bilmirəm fikirlərimi.

### *"Musiqi yaşam tərzimdir"*

**-Musiqi sizin üçün nədir?**

-Musiqi mənimçün həyatdır, yaşam tərzidir. Musiqisiz yaşamaq çətin olar mənə. Musiqini 3-4 yaşımdan hiss etməyə başlamışam.

Kəndimizdə olarkən "konserva" qutularından ritm aləti kimi istifadə edib oxuyurdum.

Elə uşaq yaşlarımdan hiss olunurdu ki, musiqiyə marağım daha çoxdur. Atam bunu duyub və məni musiqiyə yönləndirib.

**-Ailənizdə sizdən başqa bu sənətlə məşğul olan varmı?**



-Xeyr, bir tək musiqi ilə mən məşğul oluram.

**-Qarmon sizə hansısa ağrını-acını unutdurub?**

-Qarmon mənə bir çox ağrı-acını biraz da olsa, unutdurmağa səbəb olub. Amma tam şəkildə yox. Buraya Vətən həsrəti, Vətən yanğısı daxildir. Vətəndə Vətənsiz olmağı heçnə unutdura bilməz insana.

**-Kifayət qədər qarmon ifaçısı var. Sizi onlardan fərqləndirən nədir?**

-Bəli, Azərbaycanda kifayət qədər gözəl qarmon ifaçıları var. Onları sevə-sevə dinləyirəm. Zakir Mirzəyev, Aftandil İsrafilov, Ənvər Sadıqov, Xanlar Cəfərov və bir çox gözəl ifaçılarımız.

Çoxsaylı ifaçılar var ki, hamısının adını qeyd edə bilmirəm. Bu insanlar Azərbaycan musiqisinə rəng qatmış, töhvə vermiş ustad sənətkarlardır.

Bir çox gənc ifaçılar da var ki, həqiqətən çox istedadlıdırlar.

Mənim bir fərqim onda ola bilər ki, qarmonda ifa elədiyim mahnıların sözlərini əzbər bilirəm. Və ifa zamanı onu oxuduğumu hiss edirəm.

### *"Qarmonda bir çox musiqi janrlarına müraciət etmək olur"*

**-Gündə neçə saat məşq edirsiniz?**

-Demək olar ki, hər gün qarmon ifa edirəm. 4 saat, 5 saat məşq edirəm. Amma son dövrlər məlum hadisələrə görə qarmona az vaxt ayıra bildim.

**-Qarmonda caz və digər üslubda ifaları təcrübə etmisinizmi?**

-Qarmon aləti çox imkanlı alətdir. Onda bir çox musiqi janrlarına müraciət etmək olur.

Klassik, caz, pop musiqi janrına aid olan bəzi musiqiləri ifa etmişəm.

**-Qarmondan başqa hansı alətdə ifa etməyi bacarırsınız?**

-Qarmondan başqa zərb alətlərində müəyyən qədər ifa etməyi bacarıram. Nağara, qoşa nağara, "udarnik", "darbuka" kimi alətlər bu qəbildəndir.

### *"29 ildən sonra evimizi tapdım"*

**-İfa elədiyiniz musiqilərdən hansısa sizi kövrəldib?**

-Həmişə "Segah" muğamı ifa edərkən özumdən asılı olmayaraq kövrəlirəm. Çəkdiyimiz zülümlər keçir gözümün qarşısından. Artıq ifa etdiyim musiqilərdə nikbinlik, qalibiyyət hiss olunur.

**-Həyatınızdan razısınızmı?**

-Şükür Allaha ki, hər şey qaydasındadır. Həyatımdan razıyam. Allaha min şükürlər olsun.

**-Doğulduğunuz Xocavənddən də söhbət açaq...**

-Doğulduğum Tuğ kəndi Azərbaycanın ən gözəl yerlərindəndir. Azərbaycanımıza çox sayda ziyalılar bəxş edib bu kənd. 4 yaşımda köçkün düşdüyüm kəndimizə 33 yaşımda qayıtdım. Bu mənim həyatımda əvəzolunmaz bir hadisə idi. Gedib evimizi tapdım təkbaşına. Mənə bu hissi yaşatdıqlarına görə Ali Baş Komandanımıza, Ordumuza sonsuz təşəkkürlərimi bildirirəm.Allah Şəhidlərimizə rəhmət eləsin. Əvvəllər içimdə olan boşluğu əsgərlərimiz doldurdu. Onlar bizim olanı bizə qaytardılar. Artıq başqa ölkələrdə olarkən ürək açıqlığı ilə "Mən azərbaycanlıyam" deyə biləciyik. Bütün Şəhidlərimizin qarşısında baş əyirəm.

**-Yaradıcılığınızda yeniliklər varmı?**

-Artıq müəyyən musiqilər üzərində işləməyə başlamışam.Yaxın zamanlarda təqdim edəcəm.

**-Dəvətimi qəbul edib müsahibə verdiyiniz üçün təşəkkürlər.**

-Mən sizə minnətdaram.

**Rövşən Tahir**

# "Ona nə hörmətim ola bilər?"

*Flora Kərimova Xalq artistinə söz atdı*



**"Sizə bir şeyi danışım. 10-15 ilin məsələsidir. Bir Xalq artisti ilə çəkilişdə idik. Çəkilişdə çox elit bir obrazda idi həmin Xalq artisti. Arada bir pərdə görünürdü, asanlıqla o qadına söz demək mümkün deyildi. Elə oldu ki, operator nəyisə səhv etdi və təzədən çəkməli olduq. Həmin vaxt operator kameranı söndürmədi. Siz qızın üzünü görəydiniz, sözlərini eşidərdiniz. Qışqırırdı".**

Adalet.az saytı xəbər veri ki, bu sözləri Xalq artisti Flora Kərimova ARB TV-də yayımlanan "Xəbər-ətər" verilişində səsləndirib:

"Onun səsini eşidib məəttəl qaldım. Elə ki, dedilər, çəkilişə başlayırıq, elə bir dona girdi ki. Mələk donuna girdi. Orada da görünür, onun davranışının acığını çıxdılar. Həmin yeri efirdə göstərdilər.

Həmin insanı indiyə qədər görəndə o, elit görsənməyə çalışanda gülməyim tutur. Mənim ona nə hörmətim ola bilər? Ondan nə öyrənəsən axı? Heç nə".

## *Müalicə alan Neslihan: "Yaxşı olmağa çalışıram"*



**"Mənə göndərdiyiniz dəstək dolu mesajlarınız, xoş niyyətləriniz, dualarınız üçün çox təşəkkür edirəm".**

Adalet.az saytı xəbər verir ki, bu sözləri Türkiyəli aktrisa Neslihan Atagül özünün "instagram" hesabında izləyicilərinə xitabən paylaşdığı videosunda qeyd edib:

"Çox mədəni insanlarsınız. Çox təşəkkür edirəm. Məni yalnız buraxmadınız. Pis deyiləm, özümü yaxşı hiss edirəm. Doğrusu yaxşı olmağa çalışıram. Azacıq istirahətə ehtiyacım vardı və hələ də var.

Odur ki, bir az daha istirahət edəcəm. Müalicəm davam edir. Müalicə alaraq yaxşı oluram".

Qeyd edək ki, bir neçə gün bundan öncə Neslihan Atagülə " kəskin bağırsaq pozulması" diaqnozu qoyulmuş və səhhətinin ağır olduğu bildirilmişdi. Bundan sonra aktrisa baş rolu canlandırdığı "Sefirin kızı" serialından ayrılmış və müalicəyə başlamışdı.

**Rövşən Tahir**

## *Ronaldo dünyanın ən çox qol vuran futbolçusu oldu - Messi onun rekordunu qıra bilərmi?*

**İtaliya Super Kubokunun finalında Napolini 2-0 hesabı ilə məğlub edən Yuventus 9-cu dəfə kuboku muzeyinə apararkən Kriştiano Ronaldo da adını futbol tarixinə qızıl hərflərlə yazdırdı.**



35 yaşlı ulduz futbolçu final oyunun 67-ci dəqiqəsində səhnəyə çıxdı və vurduğu qolla arsenalına 760-cı qolu yazdıraraq əfsanə çexiyalı hücumçu Josef Bicanı geridə qoyaraq "tarixin ən çox qol vuran futbolçusu" adını əldə etdi. 1931-1955-ci illər arasında oynayan Bican 759 qolla ən çox qol atan futbolçu adına yiyələnmişdi. Kriştiano Ronaldo vurduğu qolla həm onun rekordunu qırdı, həm də komandasını çempion etdi. Bəs, Messi Ronaldonu keçə bilərmi? Əgər Ronaldonun 40 yaşına kimi futbol oynamaq xəyalını düşünsək, 760 rəqəmi bir da arta bilər. Messi Ronaldonun yeganə rəqibidir. Argentinalı superstarın klub və milli komanda oyunlarında atdığı qolların cəmi 742-dir və o, Ronaldodan 150 matç az oynayıb. Barselonadan getməyi düşünən Messinin Ronaldodan 2 yaş kiçik olmasını da nəzərə alsaq, aktiv futbolçular arasında bu rekordu qıra biləcək yeganə namizəd odur. Kariyerası boyunca atdığı hər 10 qoldan altısını sağ ayağı ilə, ikisini sol və ikisini də kəlləsi ilə vuran Ronaldo 2014-15 mövsümündə Atletik Bilbaoya bir qolu da dirsəyi ilə vurdu. Vurduğu qolların 18 faizini penaltilər təşkil edib. Sərbəst vuruşlardan 57 qol vurub.

**Eminquey**

## *"Qalatasaray"da yeni hücumçu*



**"Qalatasaray" heyətinə yeni futbolçu cəlb edib.**

**Qol.az xəbər verir ki, "sarı-qırmızılar" İngiltərənin "Brentford" klubundan 22 yaşlı hücumçu Halil Dervişoğlunu icarəyə götürüb.**

**Türkiyənin U-21 yığmasının da formasını geyinən gənc forvard mövsümün sonunadək "Qalatasaray"da çıxış edəcək.**

## *"Real"ın futbolçusu "Arsenal"da*



**"Arsenal" "Real"ın futbolçusu Martin Edeqor müqavilə imzalamağa hazırlaşır.**

**Qol.az xəbər verir ki, 22 yaşlı hücumçu artıq Londona yola düşüb.**

**Norveçli oyunçu tibbi müayinədən keçəcək və bundan sonra onunla icarə müqaviləsi imzalanacaq.**

**Qeyd edək ki, Edeqor bu mövsüm La Liqada 7 matça çıxıb.**

# UNEC-də "Azərbaycanın Alban Xristian mirası - Xudavəng məbədi" mövzusunda beynəlxalq konfrans keçirilib

**UNEC Multikulturalizm Mərkəzi və UNEC Tədqiqat Mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsinin təşkilatçılığı ilə "Azərbaycanın Alban Xristian mirası - Xudavəng məbədi" mövzusunda beynəlxalq konfrans keçirilib.**

UNEC Tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsinin müdiri Rəna Hüseynovanın moderatorluğu ilə keçirilən konfransda Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov mövzunun aktuallığına diqqət çəkərək, Kəlbəcərdə olan Xudavəng Alban məbədinin Azərbaycanın ən böyük monastır kompleksi olduğunu bildirib. Azərbaycanın multikultural xalq olduğuna diqqət çəkən rektor, min ildən çoxdur ki, xalqımız tərəfindən Xudavəng məbədinin qorunub saxlanılmasının bunun bariz nümunələrindən biri olduğunu deyib. A.Şirinov işğal altında olan torpaqlarımızın azad olunması nəticəsində Xudavəng monastrının da əsl sahiblərinə geri qayıtdığını vurğulayaraq, bu məbədin təkcə ölkəmizin deyil, bütün dünyanın ən önəmli məbədlərindən biri kimi ziyarət ediləcəyini bildirib.

UNEC Multikulturalizm Mərkəzinin rəhbəri, professor Məhəbbət Paşayeva Qafqaz Albaniyası abidələrinin Azərbaycan xalqının tarixi-mədəni mirası olduğuna diqqət çəkərək, ermənilərin xüsusilə XX əsrin sonlarından Azərbaycan qarşı işğal siyasətinə başlamasının, əsrlərlə qoruyub saxladığımız tarixi abidələrin çoxunun məhvinə səbəb olduğunu, 30 ilə yaxın erməni işğalı altında qalmış 1000-dən artıq tarixi abidələrmizin, o cümlədən alban məbədlərimizin ermənilər tərə-



findən vəhşicəsinə dağıdılaraq viran edildiyini, qalanlarının isə saxtalaşdırılaraq, erməni kilsəsi kimi təqdim edildiyini deyib. O, Ali Baş Komandan İlham Əliyev və şanlı ordumuz sayəsində 44 günlük müharibədə doğma torpaqlarımızla birlikdə, tarixi abidələrimizin də işğaldan azad edildiyini bildirərək, Qarabağ abidələri və tarixi haqda həqiqətlərin dünya ictimaiyyətinə catdırılacağını vurğulayıb. Qarabagın qısa müddətdə Azərbaycanın digər bölgələri kimi, multukultural dəyərlər məkanına çevriləcəyindən əminliyini ifadə edib. Türkiyə Mardin-Diyarbakır Metropoliti Saliba Özmen Alban kilsəsinin Türkiyədəki qədim süryani kilsəsi ilə tarixi baglarından bəhs etmiş, Azərbaycanın Xudavəng monastırı kimi bir çox alban kilsələrinin inanc turizminin inkişafı üçün cox böyük bir zənginlik olduğunu vurgulayıb. Alban kilsəsinin yenidən bərpa edilməsi yolunda udi alban kilsəsinə yaxından kömək etməyə hazır olduqlarını bildirən Mitropolit Azərbaycan dövlətinin Udi alban xristianlarını qoruması, Xudavəng monastırı kimi bir çox kilsələrə və məscidlərə eyni dərəcədə qaygı və diqqət göstərməsinə görə Azərbaycanın Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili Kəlbəcərin incisi olan, udilər üçün xüsusi yeri olan Xudavəng məbədinin Azərbaycan tarixindəki zəngin mədəni irsindən danışıb. Bu gün dövlətimizin himayəsində olan həmin məbədlərimizin yenidən bərpa olunacağını, qısa zamanda bu alban məbədlərinin həm ziyarətgah, həm də turizm üçün bütün dünyaya açıq olacağını deyib.

Xudavəng monastırının vaizi Rafik Danakari monastrın öz sahiblərinə geri qayıtmasından böyük qürur hissi keçirdiyini bildirib. Uzun illərin həsrətindən sonra doğma monastırda dua etdiklərinin sevincini yaşadığını deyib.

Volqoqrad Dövlət Qulluğu Akademiyasının Tarix və siyasət nəzəriyyəsi kafedrasının professoru Riçard Danakari, Kanada Toronto Universiteti, Emmanuel Kollecinin professoru Nazilə İsgəndərova, Niderland Azərbaycan Mədəniyyət evinin sədri Elxan Mirhəşimli, Niderland Azərbaycan Mədəniyyət evinin mətbuat katibi Lalə Aydəmirova Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, eləcə də mədəni-tarixi irsinin dünyaya tanıdılması istiqamətində görülən tədbirlərdən söz açaraq, təkliflərlə çıxış ediblər.

Çıxışlarda Qafqaz Albaniyası irsinin Kanadada, Avropada tanıdılması, UNEC Multikulturalizm Mərkəzinin apardığı tədqiqatların xarici mediada işıqlandırılması məqsədilə əməkdaşlıq əlaqələrini genişləndirmək, Avropa universitetləri ilə birgə konfranslar təşkil etmək, təklif olunub. Eləcə də həm Avropa, həm də azərbaycanlı gənclərin Qafqaz Albaniyası irsi ilə bağlı maarifləndirilməsi istiqamətində də əməkdaşlığım vacibliyi vurğulanıb.

**Sonda professor Məhəbbət Paşayeva konfrans iştirakçıları tərəfindən səsləndirilən təkliflərin dəyərləndiriləcəyini bildirib.**


**Müzəffərov Faiq Nazim oğlunun adına məxsus Nizami rayonu, K.Balakişiyev küçəsi 3, mənzil 3 ünvanına dair Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən verilmiş Seriya ÖM 125223 saylı 30.08.2002-ci il tarixli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Astara rayonu, Ərçivan kənd sakini Cəfərov Vəli Əli oğuna Astara rayonu Aqrar İslahat Komissiyasının 24 noyabr 2003-cu il tarixli 06 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin plan və ölçüsü A № 490710 itdiyi üçün etibarsız sayılsın.**

***

**Astara rayon Ərçivan kənd sakini Cəfərov Məhərrəm Vəli oğlunu Astara rayon Aqrar İslahat Komissiyasının 24 noyabr 2003-cu ildə 06 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin plan və ölçüsü A№493861, A№ 493860 itdiyi üçün etibarsız sayılsın.**

***

**Astara rayonu Ərçivan kənd sakini Nəsirov Tofiq Səfər oğlunu Astara rayon Aqrar İslahat Komissiyasının 24 noyabr 2003-cü ildə 06 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin plan və ölçüsü (A№494231) itdiyi w,wn etibarsız sayılsın.**

***

**Gədəbəy rayon DAİM-in direktoru Asəf Nağıyev və Rayon Bitki Mühafizə Mərkəzinin direktoru Eldar Quliyev AXA-nın direktoru Mirzə müəllimə dayısı Mirdaməd Sadıqovun vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**



Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 53
Çapa imzalanmışdır: 25.01.2021